10 dekabr 2021 №91 (1868) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Otuzillik barbar zehniyyətə mədəniyyətlə cavab verəcəyik

### İCESCO Baş Konfransının sessiyasında Qarabağda işğal müddətində məhv edilmiş mədəni irsin bərpasından bəhs olunub

Xəbər verdiyimiz kimi, 8-9 dekabr tarixlərində Misirdə İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatı (İCESCO) Baş Konfransının 14-cü sessiyası keçirilib. 49 ölkənin təmsil olunduğu sessiyada mədəniyyət naziri Anar Kərimovun rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti də iştirak edib.



Sessiyanın açılışında Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əl-Sisi, İCESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik çıxış ediblər.

Mədəniyyət naziri Anar Kərimov dekabrın 8-də sessiyada çıxış edib. Nazir 2020-ci ildə Azərbaycanın öz tarixi torpaqlarını işğaldan azad etdiyini diqqətə çatdıraraq, bu torpaqların otuz ilə yaxın Ermənistanın işğalı altında olduğu müddətdə dağıdılmış, məhv edilmiş maddi və mənəvi irsimiz, tarixi abidələrimiz, dini məbədlərimiz barədə sessiya iştirakçılarına ətraflı məlumat verib. Anar Kərimov çıxışında işğal dövründə muzeylərimizə qarşı törədilən mənəvi terrordan da söz açaraq erməni qəsbkarlarının oğurladığı, talan etdiyi eksponatların acı taleyindən bəhs edib.

Nazir həmçinin Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə 2008-ci ildə mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli və effektiv dialoqun qurulması məqsədilə irəli sürülmüş "Bakı Prosesi" haqqında danışıb. "Bakı Prosesi"nin davamı kimi bu ilin əvvəlində ölkəmiz tərəfindən "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal təşəbbüsünün də əsasının qoyulduğu diqqətə çatdırılıb. Regionda davamlı sülhün təmin edilməsi və mədəniyyətin dirçəlməsi üçün bu təşəbbüsün önəmi vurğulanıb. Anar Kərimov qeyd edib ki, Azərbaycan dövləti tərəfindən işğaldan azad olunan torpaqlarımızda genişmiqyaslı bərpa və quruculuq işləri başlanıb. Bu torpaqlardakı tarix və mədəniyyət abidələri, o cümlədən məscidlərlə yanaşı, xristian kilsələri də bərpa edilir.

Nazir bu görülən işlərə göstərilən dəstəyə görə İCESCO-ya və şəxsən Baş katibə təşəkkürünü bildirib və təşkilatın güclənməsinə, səmərəliliyinin artırılmasına yönələn islahatları alqışladığını vurğulayıb.

Qeyd edək ki, İCESCO və ümumilikdə İslam dünyası Azərbaycanın otuz ilə yaxın məruz qaldığı işğalçılığa qarşı hər zaman prinsipial mövqe nümayiş etdirərək ölkəmizin haqq işini dəstəkləyib. Bununla bağlı istər İCESCO, istərsə də müsəlman dövlətlərinin əsas siyasi qurumu olan İslam Əməkdaşlıq Təşkilatı (2011-ci ilədək İslam Konfransı Təşkilatı) tərəfindən çoxsaylı qətnamələr qəbul olunub.

davamı səh. 3-də

## Tbilisidə ulu öndərin vəfatının ildönümünə həsr olunmuş sərgi



Dekabrın 8-də Tbilisidəki Zurab Sereteli adına Müasir İncəsənət Muzeyində "Heydər Əliyev irsi və Gürcüstanla münasibətlər" adlı sərgi açılıb. Azərbaycanın Gürcüstandakı Səfirliyinin təşkil etdiyi tədbir ulu öndərin vəfatının 18-ci ildönümünə həsr olunub.

Sərgidə Heydər Əliyevin həyat və fəaliyyətini, Gürcüstana səfərlərini əks etdirən 100-dən çox fotoşəkil nümayiş olunur.

Açılış mərasimində Azərbaycanın sabiq xarici işlər naziri, diplomat Həsən Həsənov, ölkəmizin Gürcüstandakı səfiri Faiq Quliyev, Türkiyənin bu ölkədəki səfiri Fatma Ceren Yazqan, Gürcüstan Parlamentinin sədr müavini Arçil Talakvadze, bu ölkənin xarici işlər nazirinin müavini Vladimir Konstantinidi, deputatlar, ictimai-siyasi xadimlər, Gürcüstandakı azərbaycanlı iş adamları, ziyalılar iştirak ediblər.

davamı səh. 8-də

## Anar Kərimov Dubayda Dünya Yaradıcı İqtisadiyyat Konfransında çıxış edib

7-9 dekabr tarixində Dubay şəhərində "Expo 2020 Dubai" sərgisi çərçivəsində "Dünya Yaradıcı İqtisadiyyat Konfransı 2021" təşkil edilib. Konfransda ölkəmiz də təmsil olunub.

Dekabrın 9-da "Dünya Yaradıcı İqtisadiyyat Konfransı 2021"ın Nazirlər paneli keçirilib. Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov toplantıda iştirak edib.

səh. 2

## İCESCO Baş Konfransının XV sessiyasınadək təşkilata Misir sədrlik edəcək

Misir növbəti üç ildə İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatına (İCESCO) sədrlik edəcək. Dekabrın 9-da Misirin paytaxtında keçirilən İCESCO Baş Konfransının XIV sessiyasında bu ölkənin ali təhsil və elmi tədqiqatlar naziri Xalid Əbdel Ğaffar sədrliyi Fələstin nümayəndəsindən təhvil alıb.

Beləliklə, İCESCO-nun Baş Konfransının XV sessiyasına qədər olan dövrdə təşkilatın ümumi fəaliyyətinə Misirin Milli Komissiyası rəhbərlik edəcək. Eyni zamanda, Qabon nümayəndəsi Baş Konfransın sədr müavini, Pakistan təmsilçisi isə məruzəçisi seçiliblər.

Sessiyada çıxış edən İCESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik Baş Konfransın yeni sədrini və rəhbər heyətini təbrik edib.

Sessiyada İCESCO-nun "İslam Dünyasının Mədəniyyət Paytaxtı" proqramının 2022-ci ildə icrası ilə bağlı müzakirə də aparılıb. 2022-ci ildə "İslam Dünyasının Mədəniyyət Paytaxtı" adını Misirin Qahirə və Mərakeşin Rabat şəhərləri daşıyacaq. Qahirə 2020-ci il üçün bu ada layiq görülsə də, pandemiya səbəbindən "paytaxt ili" tədbirləri keçirilməmişdi.

## Qırğızıstanda Nizaminin 880 illiyi qeyd olunub

Azərbaycanın Qırğızıstandakı Səfirliyinin, TÜRKSOY-un və "Azəri" Azərbaycan Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə Bişkek şəhərində Nizami Gəncəvinin anadan olmasının 880-ci ildönümünə həsr olunan tədbir keçirilib.

"Manas" və Çingiz Aytmatov Milli Akademiyasında təşkil olunan tədbirdə Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilov, TÜRKSOY-un Baş katibi Düsen Kaseinov, Qırğızıstan Yazıçılar Birliyinin sədri Nurlanbek Kalıbekov, "Manas" və Çingiz Aytmatov Milli Akademiyasının prezidenti Topçubek Tuqunalıyev çıxış ediblər.

Əvvəlcə Azərbaycanın Xalq artisti, kinorejissor Eldar Quliyevin "Nizami" bədii filmi nümayiş olunub.

Lətif Qəndilov Nizami Gəncəvinin həyat və yaradıcılığı haqqında geniş söhbət açıb. Bildirib ki, Prezident İlham Əliyevin sərəncamı ilə 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi ölkəmizdə klassik ədəbi irsimizə, milli ədəbiyyatımızın və mədəniyyətimizin görkəmli simalarının tanıdılmasına müstəqil Azərbaycan dövlətinin göstərdiyi xüsusi diqqətin əməli ifadəsidir.




Səfir əlavə edib ki, zəngin yaradıcılığında qüdrətli söz və fikir ustadı insanları xeyirxahlığa, mərhəmətə, düzlüyə, ədalətə səsləyir, Allahı, Vətəni sevməyi öyrədir, gözəlliyi tərənnüm edir. Mənəvi dəyərlər şairin həyat və yaradıcılığının əsas məğzidir. Bu gün gender bərabərliyi haqqında çox danışılır. Amma hələ XII əsrdə dövləti idarə edən müdrik qadın obrazları Nizami əsərlərinin qəhrəmanlarına çevriliblər. Səfir qeyd edib ki, Şekspir Nizamini bütün dövrlərin və xalqların yeddi ən dahi şairi sırasına salıb. "Leyli və Məcnun" poeması Romeo və Cülyettanın faciəvi hekayəsindən dörd əsr əvvəl yazılıb.

davamı səh. 2-də



## Moskvada azərbaycanlı rəssamın "İllüziya"sı

Dekabrın 7-də Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindəki "Azərbaycan" pavilyonunda azərbaycanlı rəssam Nigar Süleymanın "İllüziya" adlı fərdi sərgisi açılıb.

Qeyd olunub ki, rəssam əsərlərini yağlı boya ilə geometrik abstraksiya və simvolizm üslubunda yaradır.

səh. 8

## Azərbaycan regiona UNESCO texniki missiyasının gəlməsində ən maraqlı tərəfdir

Azərbaycan azad edilmiş ərazilərində UNESCO texniki missiyasının həyata keçirilməsində ən maraqlı olan tərəfdir. Xalqımızın mədəni irsi misli görünməmiş dağıntıya, vəhşiliyə məruz qalıb, talan, viran, yerlə yeksan edilib. Bunun beynəlxalq ictimaiyyətə çatdırılması bizim üçün ən önəmli və strateji məsələdir.




UNESCO yanında Azərbaycan Daimi Nümayəndəliyinin rəhbəri, səfir Elman Abdullayev bu fikri AZƏRTAC-a müsahibəsində deyib.

Səfir qeyd edib ki, 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarımız İkinci Qarabağ müharibəsi nəticəsində azad edildikdən sonra bu ərazilərdə ermənilər tərəfindən törədilmiş vəhşiliklər, cinayətlər, vandallıqlar haqqında UNESCO-nun, eləcə də təşkilatda müxtəlif ölkələrin akkreditə olunmuş nümayəndələrinin məlumatlandırılması istiqamətində vacib addımlar atılıb. Təşkilatın, eləcə də müxtəlif ölkələrin akkreditə olunmuş nümayəndələrinə müvafiq konvensiyalar çərçivəsində məlumatlar təqdim olunub. Çünki mədəni irslə bağlı törədilən cinayətlərin hər biri müvafiq kateqoriyalara görə aidiyyəti konvensiyalarla tənzimlənir. Əsasən mədəni irsin dağıdılmasından, təhqir olunmasından, mədəni irs nümunələrinin qeyri-qanuni idxalı, ixracı, ümumiyyətlə, bir çox məqamlar var ki, onlar müvafiq konvensiyalarla tənzimlənir. Bu konvensiyalar çərçivəsində UNESCO-nun aidiyyəti alt-qurumları, alt-komitəsi ilə müvafiq işlər aparılıb.

davamı səh. 2-də

## Uşaqların Nizami Gəncəvi dünyası

Xəbər verdiyimiz kimi, F.Köçərli adına Respublika Uşaq Kitabxanası dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyinə həsr edilmiş "Dünyada söz olmasa, nəyə gərək düşüncə" adlı festival keçirir.

Mədəniyyət Nazirliyinin dəstəyi ilə dekabrın 6-da başlayan zəngin proqramlı festival çərçivəsində rəsm, poeziya və musiqi günləri, eləcə də ailəvi viktorina, elmi konfrans və s. tədbirlər təşkil olunur.

Festivalın ikinci günü "Şairlər ustadı böyük Nizami" adlı şeir günü ilə yadda qaldı. Gəncliyə Yardım Fondunun konfrans zalında baş tutan poeziya görüşündə şairin irsinə uşaq və yeniyetmələrin sevgisi ön planda oldu.

davamı səh. 4-də



### Qarabağın ədəbiyyat səhifələrində "Məclisi-üns"



səh. 3

### Professor Əziz Sancar: "Nobel mükafatı alanda öncə 96 yaşlı müəllimimə xəbər verdim"

səh. 5



### "Beşmanatlıq gəlin", nəhayət, səhnəyə qayıdır

səh. 7

№91 (1868)
10 dekabr 2021
www.medeniyyet.az

# 2022-ci ildə növbəti “Yüksəliş” müsabiqəsi keçiriləcək

2021-ci ildə ölkəmizdə ilk dəfə təşkil olunan “Yüksəliş” müsabiqəsi 2022-ci ildə də keçiriləcək. Prezident İlham Əliyev dekabrın 9-da bununla bağlı sərəncam imzalayıb.

Sərəncama əsasən, 2022-ci ildə “Yüksəliş” müsabiqəsinin keçirilməsi ilə bağlı cari işlərin görülməsi üçün Prezidentin ehtiyat fondundan Gənclər və İdman Nazirliyinə bir milyon manat ayrılıb.

Həmçinin dövlət başçısının “Yüksəliş” müsabiqəsinin təsis edilməsi haqqında” 2019-cu il 26 iyul tarixli 1354 nömrəli sərəncamında dəyişiklik edilib. Həmin sərəncamın 2-ci hissəsi ilə yaradılmış Təşkilat Komitəsinin tərkibi yeni redaksiyada verilib.

Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikası Prezidenti Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, üzvləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov, Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov, iqtisadiyyat naziri Mikayıl Cabbarov, təhsil naziri Emin Əmrullayev, xarici işlər naziri Ceyhun Bayramov, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, Milli Məclisin deputatı Ülvi Quliyev, İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru Balakişi Qasımovdur.

Qeyd edək ki, “Yüksəliş” müsabiqəsinin məqsədi ölkəmizdə intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etməkdir.

# “Expo 2020 Dubai”da Azərbaycan pavilyonunda caz konserti



Dekabrın 9-da Dubay şəhərində keçirilən “Expo 2020 Dubai” sərgisi çərçivəsində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə ölkəmizin pavilyonunda Şahin Növrəslinin rəhbərlik etdiyi caz qrupunun “Buta” konsert proqramı (“Buta Jazz Concert by Shahin Novrasli's”) təqdim edilib.

Şahin Növrəslinin rəhbərlik etdiyi kvartetin etno-caz, muğam-caz və milli caz janrlarının sintezindən ibarət konsert proqramı maraqla qarşılanıb.

# YARAT onillik yubileyini qeyd edib

YARAT Müasir İncəsənət Məkanı onillik tədbirləri çərçivəsində dekabrın 9-da “Ön söz – On söz” xronikal qrup sərgisini təqdim edib. On il ərzində toplanan YARAT kolleksiyası və YARAT-ın sifarişi ilə hazırlanmış seçmə əsərlər ilk dəfə olaraq Daş Salnamə Muzeyində bir ekspozisiyada nümayiş olunub.



Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Tədbirdə çıxış edən tanınmış rəssam Aida Mahmudova deyib: “Bu gün burada sizi görməyə çox şadam. Şadam ki, siz 10 illiyinizi bizimlə bölüşürsünüz. Zaman prizmasından baxanda on ilin bir ana bənzədiyini görərik. Amma bu zaman kəsiyində YARAT çox işlər görüb. Mən çox istedadlı və öz sənətini sevən peşəkarlarla işləyirəm. Öz komandamı təbrik edirəm”.

Tədbirdə YARAT-ın yubileyi münasibətilə audiovizual performansın nümayişi və İsfar Sarabskinin solo konserti təqdim olunub.

Sərgi YARAT-ın ilk layihəsi olan “Ön söz”ə istinadla bu dövr ərzində YARAT-ın keçdiyi yol və yeni nəsil müasir rəssamların yetişdirilməsi və formalaşdırılmasında oynadığı müstəsna rolu vurğulayır.

YARAT kolleksiyasının ən mühüm əsərlərindən ibarət ekspozisiya Afruz Amighi, Faiq Əhməd, Rəşad Ələkbərov, Çinarə Məcidova və Elturan Məmmədovun instalyasiya, heykəl, video və foto əsərlərini bir araya gətirir.

# Qırğızıstanda Nizaminin 880 illiyi qeyd olunub

*əvvəli səh. 1-də*

Tədbir çərçivəsində TÜRKSOY tərəfindən ingilis dilində nəşr olunan “Nizamini oxuyaq” (“Reading Nizami Ganjavi”) kitab-albomunun təqdimatı da keçirilib.

Düsen Kaseinov nəşr barədə məlumat verərək bildirib ki, TÜRKSOY “Nizami Gəncəvi İli”ni geniş şəkildə qeyd edib, sərgilər və konsertlər təşkil olunub.

Tədbirdə çıxış edənlər Nizaminin dünya ədəbiyyatına verdiyi misilsiz töhfələrdən danışıb, onun yaradıcılığının fəlsəfi aspektlərinə toxunublar.

Tədbir zamanı Azərbaycan torpaqlarının azad edilməsi uğrunda aparılan Vətən müharibəsi dövründə həqiqətləri Qırğızıstan ictimaiyyətinə obyektiv çatdıran “Slovo Kirqızıstana” qəzetinin müxbiri Aida Şirinova və Anadolu Agentliyinin bu ölkədəki müxbiri Nazir Əliyev TÜRKSOY tərəfindən təltif ediliblər.

Mərasim səfirliyin və “Azəri” Mədəniyyət Mərkəzinin təşkil etdiyi bədii hissə ilə davam edib. Nizaminin sözlərinə bəstələnmiş mahnılar ifa edilib, şairin şeirlərindən parçalar söylənilib və Azərbaycan rəqsləri təqdim olunub.

# İşğaldan azad edilən ərazilərdə yaradıcılıq ənənələri də dirçəldiləcək

## Anar Kərimov Dubayda Dünya Yaradıcı İqtisadiyyat Konfransında çıxış edib

7-9 dekabr tarixində Dubay şəhərində “Expo 2020 Dubai” sərgisi çərçivəsində “Dünya Yaradıcı İqtisadiyyat Konfransı – 2021” təşkil edilib. Konfransda ölkəmiz də təmsil olunub.




Dekabrın 9-da “Dünya Yaradıcı İqtisadiyyat Konfransı – 2021”in Nazirlər paneli keçirilib. Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov toplantıda iştirak edib. Tədbirə Birləşmiş Ərəb Əmirliklərinin mədəniyyət naziri xanım Noura Bint Mohammed Əl-Kaabi, İndoneziyanın turizm və yaradıcı iqtisadiyyat naziri və digər ölkələrin nazirləri də qatılıb.

Paneldə çıxış edən nazir Anar Kərimov müasir dövrdə yeni qlobal trend kimi yaradıcılıq, eləcə də yaradıcı iqtisadiyyatın əhəmiyyətini vurğulayıb, Birləşmiş Millətlər Təşkilatı tərəfindən “Dayanıqlı İnkişaf naminə Yaradıcı İqtisadiyyat İli” elan olunmuş 2021-ci ildə ölkəmizdə həyata keçirilən fəaliyyətlər barədə görüş iştirakçılarını məlumatlandırıb.

Anar Kərimov mədəniyyət sahəsinin, eləcə də mədəniyyət və yaradıcı sənayelərin (MYS) innovativ və dayanıqlı inkişafını hədəfləyən Milli Mədəniyyət Strategiyası, MYS-lər üzrə geniş məlumatlandırma, təbliğat və təşviqat işini həyata keçirən “Kreativ Azərbaycan” platforması, nazirliyin dəstəyi ilə yeni yaradılan Azərbaycan Yaradıcı Sənayelər Federasiyası barədə danışıb.

Nazir bildirib ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycanın işğal altında olan ərazilərini azad et-






məsi ilə həmin ərazilərdə mədəni həyatın, eləcə də yaradıcılıq ənənələrinin yenidən dirçəldilməsinə başlanıb. Xalqımızın qədim mədəniyyət beşiyi olan Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilib və yenidən regionun yaradıcı mərkəzinə çevriləcək.

Anar Kərimov çıxışı zamanı yerli və beynəlxalq tərəfdaşlarla araşdırma və planlaşdırma işləri, birgə layihələr, o cümlədən özəl sektorla əməkdaşlıq, qeyri-hökumət təşkilatlarının dəstəklənməsi istiqamətində görülən işlər barədə də məlumat verib.

***

“Expo 2020 Dubai” sərgisi çərçivəsində təşkil olunan Dünya Yaradıcı İqtisadiyyat Konfransında panel sessiyalar da keçirilib.

Mədəniyyət Nazirliyi Aparatının rəhbəri, Azərbaycan Yaradıcı Sənayelər Federasiyasının sədri Vasif Eyvazzadə və nazirliyin Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Ramil Abbəkirov tədbirlərdə iştirak ediblər.

“İndi və sonra: yaradıcı iqtisadiyyatın təkamülü”, “Qlobal yararadıcı şəhərlərin qurulması”, “Mədəniyyət və yaradıcı sənayelərin (MYS) qlobal gündəliyi: 11 başlıca addım”, “Şəhər planlaşdırması və MYS sektorlarının yerləşdirilməsi”, “Yaradıcı dözümlülük”, “Yeni inklüziv yaradıcı dünya üçün dərslər”, yaradıcı təhsil, texnologiya transformasiyası, süni intellekt və digər mövzularda sessiyalar təşkil olunub.

Tədbir çərçivəsində “Kreativ Azərbaycan” platforması və yaradıcı iqtisadiyyatın inkişafı ilə əlaqədar fikir mübadiləsi də aparılıb.

# Azərbaycan regiona UNESCO texniki missiyasının gəlməsində ən maraqlı tərəfdir

*əvvəli səh. 1-də*

Bildirilib ki, 2021-ci ildə nominasiyalar baxımından da ölkəmiz üçün uğurlu olub. Lənkəran şəhəri UNESCO tərəfindən Yaradıcı Şəhərlər Şəbəkəsinə daxil edilib. Bu siyahıda artıq 3 şəhərimiz – “sənət və sənətkarlıq” nominasiyası üzrə Şəki (2017), “dizayn” nominasiyası üzrə Bakı (2019) və “qastronomiya” nominasiyası üzrə Lənkəran şəhəri (2021) yaradıcı şəhərlər sırasında layiqli yerlərini tutublar.

Bu il ölkəmizin görkəmli şəxsiyyətlərinin adı “Yubileylər siyahısı”na salınıb. Görkəmli bəstəkar Fikrət Əmirovun 100 illik və xeyriyyəçi Zeynalabdin Tağıyevin 200 illik yubileyləri qurumun 2022-2023-cü illər üzrə “Yubileylər siyahısı”na daxil edilib.

Azərbaycan 2021-ci il noyabrın 17-də UNESCO-nun İcraiyyə Şurasına üzv seçilib. Şuranın 58 üzv ölkəsi ilə birlikdə ölkəmiz qurumun vacib mexanizm və qərarlarının qəbul olunmasında yaxından iştirak edəcək. Bu, ölkəmiz üçün çox vacibdir. Qarşıdan gələn 4 il müddətində ölkəmiz UNESCO-nun vacib və strateji istiqamətlərinə töhfə verəcək.

Cari ilin uğurlarından biri də ölkəmizin 1954-cü il Haaqa Konvensiyasının ikinci Protokolu Komitəsinə üzv seçilməsidir. Postmünaqişə dövründə Azərbaycanın bu Komitəyə seçilməsi çox vacibdir. Ölkəmiz bu Komitəyə əvvəllər də töhfə verib, ancaq indi onun üzvü kimi daha çox kömək



göstərəcək. Əvvəlki illərdə daimi nümayəndəliyimiz tərəfindən silahlı münaqişələrdə bələdçi kitabının hazırlanması, Komitənin müvafiq alt-komitəsinin təşkilində ölkəmizin texniki və maddi dəstəyi xüsusi önəm kəsb edib. Qarşıdan gələn 4 il müddətində Komitənin fəaliyyətinə töhfə veriləcək.

“Azərbaycan UNESCO ilə əməkdaşlığa böyük əhəmiyyət verir. Azərbaycan bu təşkilatın dəyər və prinsiplərinin dünyada təbliğində ən çox rolu olan ölkədir. Ölkəmiz qurumun ən əhəmiyyətli tərəfdaşlarındandır. UNESCO-da ölkəmizin həmişə xüsusi çəkisi, rolu olub. Bu, belə də davam edəcək. Bu gün Azərbaycan dünyanın ən önəmli və aparıcı ölkələrindən biridir. Beynəlxalq arenada olduğu kimi, UNESCO-da da öz sözünü deyir.

İkinci Qarabağ müharibəsindən sonra ölkəmiz üçün ən strateji məqsədlərdən biri də həqiqətlərimizin beynəlxalq ictimaiyyətə çatdırılması və bu işin davamlılığının təmin olunmasıdır. Ermənistanın 30 il ərzində törətdiyi cinayətləri hamı bilməlidir”, - deyə daimi nümayəndə diqqətə çatdırıb.

Bildirilib ki, Azərbaycan və UNESCO hazırda işğaldan azad edilmiş ərazilərimizə texniki missiyanın həyata keçirilməsi məsələsini müzakirə edirlər. İşğal edilmiş ərazilərimizə UNESCO-nun texniki missiyasının göndərilməsi məsələsi illər əvvəl Azərbaycan tərəfindən qaldırılıb. Texniki missiyanın həyata keçirilməsi də məhz Azərbaycanın təşəbbüsüdür. Ölkəmiz bu missiyanın reallaşmasında maraqlı olmaqla yanaşı, onun vacibliyini qurum rəsmilərinin diqqətinə çatdırıb. Bunun təsdiqini UNESCO-nun 2005-ci ildə dərc edilmiş 10 illik hesabatında da görürük. Həmin hesabatda UNESCO qeyd edib ki, Azərbaycan təşkilatdan tezliklə texniki missiyanın həyata keçirilməsini istəyir, ancaq Azərbaycan torpaqlarının Ermənistanın işğalı altında olmasına görə missiyanın həyata keçirilməsi mümkün olmayıb: “Bu gün missiyanı gözləyirik, bu istiqamətdə müvafiq işlər aparılır. UNESCO ilə danışıqlar davam edir. UNESCO, eləcə də bütün tərəflər yaxşı bilirlər ki, Azərbaycan texniki missiyanın həyata keçirilməsində ən maraqlı olan tərəfdir”.

# Nizami əsərlərinə çəkilmiş miniatürlərdən ibarət daha bir sərgi

## Sərgilənən əsərlərin hamısı tədbirdə iştirak edənlər tərəfindən alınıb

Bakıdakı Xətai Sənət Mərkəzində Nizami Gəncəvi əsərlərinin motivləri əsasında “Beynəlxalq Mahmud Kaşğarlı” mükafatı laureatı, rəssam-heykəltəraş Natiq Camal Afşarın çəkdiyi miniatürlərdən ibarət sərgi açılıb.

Açılış mərasimində çıxış edən Milli Məclisin Mədəniyyət komitəsinin eksperti Əkbər Qoşalı bildirib ki, Azərbaycan miniatür sənəti XIII yüzildən inkişaf etməyə başlayıb, sonrakı dönəmlərdə Təbriz miniatür məktəbinə çevrilərək dünyada şöhrət qazanıb. Çağdaş dönəmdə bu sənəti yaşadan rəssamlarımızdan biri Natiq Camal Afşardır.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva 8 dekabr – Beynəlxalq Rəssamlar Günü münasibətilə müəllif və sərgidə iştirak edən rəssamların timsalında bütün fırça ustalarını təbrik edib. Bildirib ki, Nizami Gəncəvi irsi Azərbaycan, eləcə də bütün dünyanın mədəniyyət tarixi üçün önəmlidir. Dahi şairin irsinin qorunması, təbliğ edilməsi dövlət mədəniyyət siyasətimizin bir hissəsidir: “Rəssam Natiq Camal Afşarla biz vaxtaşırı



görüşür, məsləhətləşirik. Keçən ay onun emalatxanasına baş çəkdik, əsərləri ilə bir daha yaxından tanış olduq. Görəndə ki, Natiq müəllim Nizami yaradıcılığına davamlı şəkildə müraciət edib və artıq bir sərgiyə yetəcək qədər əsəri var, biz təşəbbüs irəli sürərək bu sərginin təşkil edilməsinə qərar verdik”.

Mədəniyyət və İncəsənət Universitetinin müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Günel Seyidəhmədli Azərbaycan miniatür sənəti tarixi, ənənələri, o cümlədən Natiq Camal Afşarın miniatür yaradıcılığı mövzusunda məruzə edib.

Digər çıxış edənlər Natiq Camal Afşara ürək sözlərini çatdırıblar.

“Vektor” Beynəlxalq Elmlər Akademiyasının prezidenti, professor Elçin İsgəndərzadə, “Hədəf” təhsil brendinin yaradıcısı Şəmil Sadiq və Dünya Gənc Türk Yazarlar Birliyi başqanı İntiqam Yaşar təmsil etdikləri qurumlar adından Natiq Camal Afşara plaket, fəxri fərman və diplom təqdim ediblər.

Sonda Natiq Camal Afşar tədbirin təşkilatçılarına, əsərlərini alan sənətsevərlərə, sərgini işıqlandıran media nümayəndələrinə təşəkkürünü bildirib.

Qeyd edək ki, sərgidə 20-dən artıq əsər nümayiş olunub. Əsərlərin hamısı tədbirdə iştirak edənlər tərəfindən satın alınıb.

Bildirilib ki, alınan əsərlər Özbəkistan, Türkiyə, eləcə də digər ölkələrdə Nizami Gəncəvi irsinə maraq göstərən ünvanlara göndəriləcək, nizamişünaslara, Azərbaycanın dostlarına hədiyyə olunacaq.

# Azərbaycanla Misir arasında mədəni əlaqələr möhkəmlənəcək

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov Misir Ərəb Respublikasına səfəri zamanı bu ölkənin mədəniyyət naziri İnes Abdel-Dayem ilə görüşüb.

Görüşdə Azərbaycanın Misirdəki səfiri Tural Rzayev və Qahirə Opera Teatrının direktoru Maqdi Sabir də iştirak ediblər.

Qonaqları salamlayan İnes Abdel-Dayem iki ölkə arasında opera, kinematoqrafiya sahəsində əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətindən danışıb. Nazir Misirlə Azərbaycan arasında dostluq, mədəni əməkdaşlıq münasibətinin bundan sonra da uğurla davam etdiriləcəyinə inamını ifadə edib.

Anar Kərimov dəvət üçün həmkarına təşəkkürünü bildirərək, iki ölkə arasında əməkdaşlığın bir sıra sahələrdə uğurla davam etdiyini vurğulayıb, beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək, mədəniyyət sahəsində tərəfdaşlığı yüksək dəyərləndirdiyini deyib. Bildirilib ki, Azərbaycan beynəlxalq təşkilatlar çərçivəsində Misirlə mədəni irs sahəsində birgə səylərə xüsusi önəm verir. Nazir qədim mədəniyyət mərkəzi olan Qahirə şəhərinin incəsənət, muzey və digər sahələrdə çoxşaxəli təcrübəsindən Azərbaycanın yararlanmaq niyyətində olduğunu da vurğulayıb.

Anar Kərimov həmkarına Azərbaycan Prezidentinin təşəbbüsü ilə 2008-ci ildə irəli sürülmüş mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi" haqda məlumat verərək, bu ilin əvvəlində ölkəmiz tərəfindən "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal kampaniyası barədə məlumat



qlobal təşəbbüsünün də əsasının qoyulduğunu bildirib. Nazir Azərbaycan Respublikasının regionda davamlı sülh naminə bir sıra layihələrə imza atdığını vurğulanıb.

***

Səfər çərçivəsində nazir Anar Kərimovun Misirin Əl-Azar Universitetinin baş imamı Şeyx Əhməd əl-Tayiblə görüşü də keçirilib.

İki ölkə arasında dostluq münasibətinin qədim köklərə dayandığını bildirən Anar Kərimov mədəniyyətlərarası dialoqun inkişafında Misirin mühüm rolunu vurğulayıb. Nazir Azərbaycanın mədəniyyətlərarası dialoqa dair təşəbbüsü olan "Bakı Prosesi", bu platformada ənənəvi olaraq keçirilən Dünya Mədəniyyətlərarası Dialoq Forumu, eləcə də ölkəmizin bu xüsusda yeni təşəbbüsü – "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal kampaniyası barədə məlumat verib. 2022-ci ildə Bakıda növbəti Dünya Mədəniyyətlərarası Dialoq Forumunun planlaşdırıldığını qeyd edən mədəniyyət naziri Şeyx Əhməd əl-Tayibi foruma qatılmağa dəvət edib.



Anar Kərimov söhbət zamanı işğaldan azad olunmuş ərazilərimizdə erməni barbarlığı, otuz ilə yaxın işğal müddətində dağıdılmış dini məbədlərimiz, mədəniyyət abidələrimiz barədə danışıb. Vurğulanıb ki, bu vandalizm təkcə Azərbaycana deyil, ümumilikdə İslam dünyasına qarşı törədilib. Həmçinin qeyd edilib ki, "Mədəniyyət naminə sülh" qlobal təşəbbüsü çərçivəsində Azərbaycan sülhü təbliğ etməyə, bölgədə əmin-amanlığa nail olmaq yolunda faydalı addımlar atmağa hazırdır və bu istiqamətdə bir sıra işlər görülür.

Şeyx Əhməd əl-Tayib nazirin Dünya Mədəniyyətlərarası Dialoq Forumuna dəvətini məmnuniyyətlə qəbul etdiyini vurğulayıb. O, Azərbaycanın illər boyu mədəniyyətlərarası dialoqun inkişafında gördüyü işlərin təqdirəlayiq olduğunu deyib.

Tərəflər həmçinin İslam dininə qarşı bəzi qüvvələrin apardığı yanlış təbliğatı qınayaraq dinimizin sülh və barışığa çağırış olduğunu vurğulayıb və bunu ən gözəl nümunələrlə dünyaya çatdırmağın önəmindən danışıblar.

# Qarabağın ədəbiyyat səhifələrində "Məclisi-üns"

## Elmi-ədəbi konfrans keçirilib



Azərbaycanın qədim mədəniyyət məkanlarından olan Qarabağda xanlıqlar dövründən sonra ədəbiyyat və sənət daha da inkişaf edib. Molla Pənah Vaqifin Qarabağ sarayında baş vəzir olması xanlığın söz, sənət adamlarına verdiyi dəyərin göstəricisidir. Şuşada fəaliyyət göstərmiş "Məclisi-üns" ədəbi məclisi bu şəhərin mədəniyyət mərkəzi olmasının, mədəniyyətimizin inkişafına verdiyi töhfələrin daha bir nümunəsidir.

Dekabrın 7-də AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin təşkilatçılığı ilə "Qarabağın ədəbiyyat səhifələrində "Məclisi-üns" adlı elmi-ədəbi konfrans keçirilib.

Tədbirdə Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli və Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin direktoru Səadət Xələfbəyli giriş sözü söyləyiblər.

Sonra Ədəbiyyat İnstitutunun İlkin yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru Mahirə Quliyeva, institutun baş elmi işçisi, filologiya elmləri doktoru, professor Raqub Kərimov, AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru Mərziyyə Nəcəfova, Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyin Qarabağ filialının elmi işçisi Rəhman Baxşəliyev məruzələrlə çıxış ediblər.




Məruzələrdə Qarabağın ədəbi-mədəni keçmişi, XIX əsr ədəbi məclisləri və muğam-sənət tarixi, Qarabağ atları, Qarabağ müharibəsi ədəbiyyatda, XX əsr kino sənətində Qarabağ mövzuları ətrafında söz açılıb. Qarabağ ədəbi mühitinin yetirmələri olan Molla Pənah Vaqif, Xurşudbanu Natəvan, Qasım bəy Zakir, Baba bəy Şakir, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev və başqalarının yaradıcılığından bəhs olunub, "Məclisi-üns", "Məclisi-fəramuşan" ədəbi məclislərinin əlyazma nüsxələri haqqında məlumat verilib.

Tədbirin bədii hissəsində Şövkət Ələkbərovanın ifasında "Durnalar" (musiqi: C.Cahangirov, söz: M.P.Vaqif), Rəşid Behbudovun ifasında "Qərənfil" (musiqi: V.Adıgözəlov, söz: X.Natəvan) əsərləri, S.Vurğunun "Vaqif" dramı əsasında səhnələşdirilmiş televiziya tamaşasından Ağa Məhəmməd şah Qacar və Molla Pənah Vaqifin dialoqu səsləndirilib.

Bundan əlavə, tədbirdə AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Nəzmiyyə Yigitoğlunun təqdimatında onlayn ekskursiya və AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda "Qarabağın ədəbi-mədəni mühiti əlyazmalarda" adlı sərgiyə ekskursiya təşkil olunub.

# Media subyektlərinə vergi güzəştləri təklifi

Medianın İnkişafı Agentliyində bir sıra media subyektlərinin rəhbər və nümayəndələrinin iştirakı ilə görüş keçirilib. Görüş media sahəsində həyata keçirilən islahatlar çərçivəsində görülən işlərin müzakirəsinə həsr olunub.

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov çıxışında qeyd edib ki, ölkə başçısının "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" 2021-ci il 12 yanvar tarixli fərmanı müvafiq sahədə islahatların yol xəritəsidir. Bildirib ki, normativ hüquqi bazanın təkmilləşdirilməsi, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin peşəkarlığının, məsuliyyətinin və cəmiyyətin media savadlılığının artırılması bu islahatların əsas istiqamətləridir.

Əhməd İsmayılov qeyd edib ki, media subyektlərinin vergi güzəştləri və digər sosial təminatlardan da yararlanması üçün layihələr üzərində iş gedir.

Onun sözlərinə görə, agentlik həm "Media haqqında" qanunun, həm də Vergi Məcəlləsinə dəyişikliklərin eyni vaxtda qəbul olunmasını istəyir. Məcəlləyə dəyişikliklərdə isə media subyektlərinə 5 il müddətinə vergi güzəştləri edilməsi təklif olunur. Buraya media subyektlərinin həm mənfəət, həm də ƏDV-dən azad edilməsi təklifləri daxildir.



Dekabrın 8-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında tanınmış bəstəkar, Xalq artisti, professor Cahangir Cahangirovun "Xanəndənin taleyi" operasının tamaşası nümayiş olunub. Tamaşa bəstəkarın 100 illiyinə həsr edilib.

# "Xanəndənin taleyi"

## Operanın növbəti nümayişi müəllifin 100 illiyinə həsr olunub

"Xanəndənin taleyi" operasını C.Cahangirov 1978-ci ildə yazıb. Opera XX əsrin əvvəllərində şöhrətin zirvəsində ikən Avropaya mühacirət edən və həyatının sonuna kimi vətən həsrəti ilə yaşayıb dünyasını dəyişən xanəndə Mir Səidin faciəvi taleyindən bəhs edir.

Mir Səid rolunu Əməkdar artist İlkin Əhmədov ifa edib. Digər rollarda teatrın aparıcı solistləri – Əməkdar artistlər Afaq Abbasova (Xanım), Əliəhməd İbrahimov (Rəşid bəy), Səbinə Vahabzadə (Gülsüm), Fəridə Məmmədova (Rəna), Tural Ağasıyev (Aşur bəy), solistlər Fəhmin Əhmədli (Qasım), Mahir Tağızadə (Məmməd) və Rza Xosrovzadə (Əsədulla bəy) çıxış ediblər.

Tamaşanı Əməkdar artist, dirijorların beynəlxalq müsabiqələrinin laureatı Əyyub Quliyev idarə edib.

# Otuzillik barbar zehniyyətə mədəniyyətlə cavab verəcəyik

əvvəli səh. 1-də

Yeri gəlmişkən, dekabrın 9-da ölkəmizin bu təşkilata üzvlüyünün 30 ili tamam oldu. 1991-ci ilin həmin günü İslam ölkələri dövlət başçılarının Seneqalın paytaxtı Dakarda keçirilən zirvə toplantısında Azərbaycan Respublikası İslam Konfransı Təşkilatına üzv qəbul edilib. Bu, müstəqil Azərbaycanın üzv olduğu ilk beynəlxalq təşkilat idi.

Azərbaycan da öz növbəsində ötən illərdə İslam ölkələri arasında əməkdaşlığa, o cümlədən mədəni əlaqələrə öz töhfələrini verib. Ölkəmiz 2015-ci ilin noyabrında İCESCO Baş Konfransının 12-ci sessiyasına və təşkilatın İcraiyyə Şurasının 36-cı iclasına ev sahibliyi edib.

Baş Konfrans İCESCO-nun ali qurumudur və onun sessiyaları üç ildən bir keçirilir. 14-cü sessiyada İCESCO-nun 2019-2021-ci illərdə fəaliyyəti qiymətləndirilib, təşkilatın hesabatı, gələcək fəaliyyət istiqamətləri üzrə müzakirələr aparılıb.

Sessiya zamanı mədəniyyət naziri Anar Kərimovun bir sıra görüşləri də olub. Anar Kərimov İCESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik, Misirin ali təhsil və elmi araşdırmalar naziri Xalid Əbdülğaffar və Misirin Baş müftisi Şövqi Allam ilə görüşüb.

### Mədəniyyət Nazirliyi tərəfindən sərgi təşkil olunub

Misirdə İCESCO Baş Konfransının 14-cü sessiyası ilə bərabər II Ali Təhsil və Elmi Tədqiqatlar üzrə Qlobal Forum da təşkil olunub. 8-10 dekabr tarixində Qahirə şəhərində keçirilən Foruma mədəniyyət naziri Anar Kərimovun rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti də qatılıb.




Forum çərçivəsində ölkəmiz üçün ayrılmış guşədə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə sərgi açılıb.

Sərgidə ölkəmizin mədəniyyəti və tarixindən bəhs edən videoçarxlar, 2021-ci ildə 880 illik yubileyi qeyd olunan dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi, Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhəri, o cümlədən Qarabağ haqqında dolğun məlumatlar ziyarətçilərə təqdim olunur. Həmçinin ziyarətçilərə ölkəmiz haqqında kitablar da paylanılır.

# MDB-nin 30 illiyinə həsr edilmiş fotosərgi və konsert

Dekabrın 8-də Bakıdakı Rus evində (RİMM) Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılmasının 30 illiyinə həsr edilmiş fotosərgi açılıb.



Tədbirdə MDB ölkələrinin diplomatik korpusunun nümayəndələri, mədəniyyət və təhsil müəssisələrinin rəhbərləri iştirak ediblər.

Rusiya Federasiyasının Azərbaycandakı səfiri Mixail Boçarnikov tədbirdə çıxış edib. 30 il ərzində MDB-nin təşkilat olaraq keçdiyi yoldan bəhs edən diplomat deyib: "Şadıq ki, müstəqil olmaq və birlikdə yaşamaq imkanımız var".

Sərgi üçün fotolar Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Tacikistan, Özbəkistan fotoqrafları və "Rossotrudniçestvo" agentliyinin həmin ölkələrdəki nümayəndəlikləri tərəfindən təqdim edilib.

Tədbirdə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tələbə və müəllimlərinin ifasında konsert proqramı da təqdim olunub. Azərbaycan və xarici ölkələrin klassiklərinin əsərləri səslənib.

# "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün"

Azərbaycan İstiqlal Muzeyində Vətən müharibəsi şəhidlərinin xatirəsinə ithaf olunan "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün" adlı layihə çərçivəsində daha bir sərgi açılıb.



Dekabrın 9-da təqdim olunan "Cəsurlar" adlı sərgidə Vətən müharibəsi şəhidləri – kapitan Türkay Hüseynli, baş leytenant İlkin Məmmədzadə, gizir Coşqun Məmmədov, əsgərlər Qardaşağa Cəbiyev və Əli Tağıyevin həyatının müxtəlif illərinə, xidməti fəaliyyətinə aid fotoşəkilləri, şəxsi əşyaları nümayiş olunur.

Tədbirdə şəhid ailələrinin üzvləri, qazilər, "ASAN Könüllüləri" təşkilatının üzvləri, tələbələr iştirak ediblər.

Sərgi dekabrın 16-dək davam edəcək.

# “Tarixin böyük azərbaycanlısı”

Regional mədəniyyət idarələrinin əhatə etdiyi müəssisələrdə dünya şöhrətli siyasətçi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının 18-ci ildönümü münasibətilə müxtəlif tədbirlər keçirilir.



Gəncə RMİ Gəncə şəhər Heydər Əliyev Mərkəzində ulu öndərin vəfatının ildönümü münasibətilə keçirilən tədbirdə böyük dövlət xadiminə həsr olunmuş sənədli film nümayiş etdirilib.

Kürdəmir RMİ Beyləqan rayon Heydər Əliyev Mərkəzində “Tarixin böyük azərbaycanlısı” adlı tədbir təşkil olunub. Mərkəzin direktoru Xəyalə Kərimova Heydər Əliyevin zəngin həyat və fəaliyyətindən, ölkəyə rəhbərlik etdiyi hər iki dövrdə gördüyü böyük işlərdən danışıb. Sonda ümummilli liderin həyat və dövlətçilik fəaliyyətinə həsr olunmuş film nümayiş etdirilib.

Masallı RMİ Masallı rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə “Xalqın xilaskarı” mövzusunda elmi-praktik konfrans keçirilib. Çıxışlarda dövlətimizin son illərdə əldə etdiyi nailiyyətlərin Heydər Əliyev siyasətinin bəhrəsi olduğu qeyd olunub, ulu öndərin müasir tariximizdəki müstəsna rolundan bəhs edilib. Yardımlı rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə isə ümummilli liderin həyat və fəaliyyətini əks etdirən eksponatlara baxış olub.



Şəki RMİ Balakən rayon Heydər Əliyev Mərkəzində rayonun İmam Şamil adına Şambul kənd tam orta məktəbinin şagirdləri üçün “Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi” adlı ekskursiya təşkil olunub.

Xaçmaz RMİ Quba rayon MKS-nin kənd kitabxana filialları tərəfindən də ümummilli lider Heydər Əliyevin vəfatının ildönümü ilə əlaqədar tədbirlər keçirilib.

Ağcabədi RMİ Ağdam rayon Heydər Əliyev Mərkəzində “Müasir Azərbaycanın memarı və qurucusu” adlı anım tədbirində ulu öndərə həsr olunmuş videoçarx nümayiş etdirilib. Mərkəzin Əməkdaşı Elçin Cəfərov, Zəngişalı kənd Mədəniyyət evinin müdiri Fikrət Əliyev və başqaları çıxış edərək böyük dövlət xadiminin xalqımız qarşısında misilsiz xidmətlərindən danışıblar.

## Vətən fədailəri unudulmur

Lənkəran RMİ Lənkəran şəhər Mədəniyyət Mərkəzinin Göyşaban Kənd Yaradıcılıq evində Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış Sənan Ağazadə və Elməddin Məmmədlinin xatirəsinə həsr olunmuş “Şəhidlər ölməz, Vətən bölünməz!” mövzusunda xatirə gecəsi keçirilib. Şəhidlərin ailə üzvləri, Qarabağ müharibəsi qaziləri, təhsil və mədəniyyət müəssisələri nümayəndələrinin iştirak etdiyi tədbirdə yaradıcılıq evinin özfəaliyyət kollektivi ədəbi-bədii kompozisiya təqdim edib.



İsmayıllı RMİ Şamaxı rayon Mədəniyyət Mərkəzində Sevgili Xanəliyevanın 44 günlük Vətən müharibəsində şəhadətə yüksələn Şamaxı şəhidlərinin əziz xatirəsinə həsr olunan “Ab-ı həyat” adlı kitabının təqdimat mərasimi olub. Kitabda Şamaxı rayonundan olan 43 şəhid haqqında geniş məlumat yer alıb.

## Bölgələrdə müxtəlif səpkili tədbirlər

Sabirabad RMİ-nin dəstəyi və şəhər Ü.Hacıbəyli adına Uşaq musiqi məktəbinin təşkilatçılığı ilə Beynəlxalq Əlillər Gününə (3 dekabr) həsr olunmuş tədbir keçirilib. Şagirdlərin ifasında musiqi və rəqs nümunələri nümayiş etdirilib. Cizgi film personajları uşaqların könlünü oxşayan rəngarəng çıxışlar təqdim ediblər.



Sumqayıt RMİ Sumqayıt Dövlət Rəsm Qalereyasında “Narkomaniyaya yox deyək” adlı rəsm sərgisi keçirilib. Xaçmaz RMİ Şabran rayon Mədəniyyət Mərkəzində isə Şabran Xalq teatrı narkomaniyanın ağır fəsadlarından bəhs edən “Həyatla oyun” tamaşası nümayiş etdirilib. Arzu Soltanın “Xaşxaşın göz yaşları” əsərinin motivləri əsasında hazırlanan tamaşada (rejissor Cabir Əmrahov) rolları Zəfər Məmmədov, Nurlan Fərhadlı, Günay Xaniyeva, Qulu Mövsümov və Şəmistan Zeynallı və başqaları ifa ediblər.

Q.Qarayev adına Sumqayıt şəhər 1 nömrəli Uşaq musiqi məktəbinin şagirdləri Aysu Məmmədzadə, Ayla Pənahova və Çingiz Ələsgərov Estoniyanın Tallinn şəhərində keçirilən “Qızıl payızın ulduzları” müsabiqəsində fortepiano ixtisası üzrə öz yaş kateqoriyalarında birinci yerə layiq görülüblər.



Xırdalan şəhər onbirillik Musiqi məktəbinin kollektivi Masallıda geniş konsert proqramı ilə çıxış edib. Masallı RMİ-nin rəisi Bəxtiyar Qılıncov və Xırdalan şəhər Musiqi məktəbinin direktoru İkram Manafov qarşılıqlı səfərlərin kollektivlər arasında yaradıcılıq əlaqələrinə və şagirdlərin inkişafına töhfə verəcəyini bildiriblər. Qonaq kollektivin təqdim etdiyi konsert alqışlarla qarşılanıb.

Ağdaş RMİ Zərdab rayon Mərkəzi Kitabxanasında “Poeziya dünyasının dahisi” başlıqlı tədbir keçirilib. MKS-nin Uşaq şöbəsi və filiallarının fəal oxucuları Nizami Gəncəvinin qəzəllərini söyləyiblər.

Göyçay rayon Rəsul Rzanın Ev-Muzeyində “Aşıq Ələsgər dünyası haqdan gələn vergidir” başlıqlı tədbir təşkil olunub. Usta sənətkarın 200 illiyinə həsr olunan tədbirdə Arif Məmmədov adına Musiqi məktəbinin şagirdləri Aşıq Ələsgərin sözlərinə yazılmış mahnıları ifa edib, şeirlərini səsləndiriblər.

İsmayıllı RMİ Qəbələ Dövlət Rəsm Qalereyasında “Kamil Əliyev – 100” adlı sərgi keçirilib. Ağstafa RMİ Tovuz Rayon Dövlət Rəsm Qalereyası da Xalq rəssamı Kamil Əliyevin 100 illik yubileyi münasibətilə dərnək üzvlərinin əl işlərindən ibarət sərgi təşkil edib.

**Hazırladı: N.MƏMMƏDLİ**

# Azərbaycan və Qətər mədəni əməkdaşlığı inkişaf etdirməkdə maraqlıdır

### Mədəniyyət nazirinin birinci müavini Dohada görüşlər keçirib

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini Elnur Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti Qətər Dövlətində səfərdə olub. Səfər çərçivəsində bir sıra tədbir və görüşlər keçirilib.

Dekabrın 7-də Elnur Əliyev Qətər Muzeylərinin baş icraçı direktoru Əhməd Musa əl-Nəmlə ilə görüşüb. Görüşdə iki ölkə arasında mədəni əməkdaşlıq, o cümlədən muzey işi sahəsində əlaqələr müzakirə edilib.

Mədəniyyət nazirinin birinci müavini qloballaşan dünyada mədəni unikallığın qorunmasının əhəmiyyətindən danışaraq ortaq mədəni dəyərlərin xalqları bir-birinə yaxınlaşdırdığını, bu xüsusda mədəniyyətin körpü rolu oynadığını deyib. 2021-ci ilin Azərbaycanda “Nizami Gəncəvi İli” elan edildiyini diqqətə çatdıran Elnur Əliyev dahi mütəfəkkirin yaradıcılığında ümumbəşəri dəyərlərin tərənnüm olunduğunu vurğulayıb. Elnur Əliyev Azərbaycanın mədəniyyəti, incəsənəti və tarixi, eləcə də Vətən müharibəsində əldə olunmuş şanlı Qələbə və Qarabağ həqiqətləri barədə həmsöhbətinə məlumat verib.

Qətər Muzeylərinin baş icraçı direktoru Azərbaycan Mədəniyyət Nazirliyi nümayəndə heyətinin səfəri və keçirilmiş görüşlərin əhəmiyyətini vurğulayıb. Bu cür qarşılıqlı səfərlərin əməkdaşlığa və xalqların bir-birini yaxından tanımasına zəmin yaratdığını bildirən əl-Nəmlə mövcud əlaqələrin inkişaf etdirilməsində maraqlı olduğunu deyib.





Görüşdə Azərbaycanın Qətər Dövlətindəki səfiri Rəşad İsmayılov, Azərbaycan Mədəniyyət Nazirliyi və səfirliyin nümayəndələri iştirak ediblər.

Sonra Elnur Əliyev Qətər Milli Muzeyi ilə tanış olub.

***

Səfər çərçivəsində daha bir görüş Doha şəhərində Qətər Milli Kitabxanasının rəhbəri, dövlət naziri Həməd bin Əbdüləziz əl-Kavarinin şəxsi kitabxanasında keçirilib.

Görüşdə dövlət naziri Həməd bin Əbdüləziz əl-Kavari, mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, səfir Rəşad İsmayılov, Qətərin mədəniyyət nümayəndələri, iş adamları və jurnalistlər iştirak edib.

Dövlət naziri Azərbaycan və Qətər arasında mövcud mədəni əməkdaşlığın genişləndirilməsinin digər sahələrdə də əlaqələrin inkişafında rolunu vurğulayıb.

E.Əliyev Azərbaycan mədəniyyətinin müxtəlif sahələri üzrə, xüsusən Azərbaycan xalçaçılıq sənətinin nümunələri ilə bağlı ətraflı məlumat verib.

Sonda Azərbaycan xalçaçılıq sənətinin Təbriz məktəbi nümunələrindən bəhs edən kitab Həməd əl-Kavariyə hədiyyə olunub.

# İçərişəhərdə Nizaminin 880 illiyinə həsr olunmuş konfrans keçirilib

Dekabrın 7-də “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təşkilatçılığı ilə Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş yekun ümumrespublika konfransı keçirilib. Tədbirdə Xarici İşlər Nazirliyinin təşkilati, UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının maliyyə dəstəyi ilə nəşr edilən “Nizami Gəncəvi klassik və müasir tədqiqlərdə” adlı kitabın təqdimatı olub. Kitabda respublikamızın tanınmış nizamişünas alimləri, eləcə də rus tədqiqatçılarının araşdırmaları toplanıb.



Tədbiri “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Aparat rəhbəri Read Qasımov açaraq diqqətə çatdırıb ki, 2019-cu ildə İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə qurum tərəfindən bir sıra layihələr reallaşdırılmış və nəticədə “Bir əsrlik Nəsimi araşdırmaları” adlı elmi məqalələr toplusu nəşr olunmuşdu: “İnanırıq ki, “Nizami Gəncəvi İli”nin sonunda ərsəyə gələn “Nizami Gəncəvi klassik və müasir tədqiqlərdə” adlı araşdırmalar toplusu da elm və sənət tariximiz üçün çox faydalı olacaq”.

Kitabın elmi redaktoru, Milli Məclisin deputatı, akademik Rafael Hüseynov bildirib ki, Nizami Gəncəvi lap çoxdan yalnız Azərbaycanın övladı olmaq çərçivəsindən çıxıb: “Onun ədəbi yadigarları bəşəriyyətin ən qiymətli sərvətləri xəzinəsinə daxil olub, özü isə bütün xalqların, insanlığın övladı olmaq mərtəbəsinə ucalıb. Nizamidən sonra onun əsərlərinə yüzlərlə nəzirələr yazılıb, Hindistanda Əmir Xosrov Dəhləvi Nizami poemalarına cavab olaraq ilk beşliyi yaratmaqla, əslində, həm də Nizami məktəbinin bünövrəsini qoydu. Əmir Xosrov həm də Nizamiyə cavab yazmağın düsturunu müəyyənləşdirdi: süjet, obrazlar qalmalı, təməl prinsiplər qorunmalıdır”.

Nizaminin dünya dillərinə ən çox tərcümə edilmiş klassiklərdən olduğunu söyləyən R.Hüseynov deyib ki, bu dillərin sırasına zaman ötdükcə yeniləri əlavə olunacaq. “Nizami əsərləri ilə yalnız əsrlər boyu təkrarlanacaq ədəbi model deyil, həm də düşüncə, millət quruculuğu, mənəviyyat quruculuğu, dövlət quruculuğu modeli yaratdı. O ideyaları ki, onları Nizami səkkiz əsr əvvəl təbliğ edirdi, bu gün də arzulanandır. O keyfiyyətlər ki, Nizami səkkiz əsr əvvəl onları insanlarda, cəmiyyətdə görmək istəyirdi, bu gün də insanlıq həmin dəyərlərin daha artıq bərqərar olması yolunda mübarizə aparır. Nizami daim bizdən bir addım irəlidədir, həmişə də bizdən bir addım qabaqda olacaq və hər zaman da bizi daha aydın gələcəyə yönəldəcək”, - deyə akademik qeyd edib.




Nizami Gəncəvinin bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdən biri olduğunu deyən Xalq yazıçısı Anar vurğulayıb ki, böyük mütəfəkkirə həsr olunan hər bir tədbir Nizami bayramıdır: “Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır. Nizami də Homer və Firdovsi, Yunis Əmrə və Nəvai, Rustaveli və Puşkin kimi bütün dünyanın fəxridir, amma ilk növbədə, əlbəttə, öz xalqının övladıdır”.

Konfransda Milli Məclisin deputatı, akademik Nizami Cəfərov, professorlar Vilayət Quliyev, Şəfəq Əlibəyli, Zümrüd Dadaşzadə, filologiya üzrə fəlsəfə doktoru Əsmətxanım Məmmədova və başqaları Nizami yaradıcılığı haqqında danışaraq kitab barədə fikirlərini bölüşüblər. Vurğulanıb ki, “Nizami Gəncəvi klassik və müasir tədqiqlərdə” adlı kitab “Nizami Gəncəvi İli”nə gözəl töhfədir.

Qeyd edək ki, “Nizami Gəncəvi klassik araşdırmalarda” və “Nizami Gəncəvi müasir tədqiqlərdə” fəsillərindən ibarət kitabın ön söz müəllifi “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi İdarə Heyətinin sədri Əsgər Ələkbərov, işçi qrupun rəhbəri filologiya üzrə fəlsəfə doktoru İradə Musayevadır.

# Uşaqların Nizami Gəncəvi dünyası

### Uşaq Kitabxanasının dahi şairə həsr olunan festivalı davam edir

*əvvəli səh. 1-də*

Paytaxtın 1, 3 və 5 nömrəli Uşaq-gənclər yaradıcılıq mərkəzlərinin, eləcə də 16 saylı Texniki-Humanitar, Bakı Avropa və Zəngi liseylərinin, 86, 142, 189, 190 nömrəli tam orta məktəblərin, həmçinin 1 nömrəli Uşaq-gənclər inkişaf mərkəzinin sağlamlıq imkanları məhdud uşaqlarının, Abşeron rayon məktəblilərinin ifalarında dahi şairin əsərlərindən nümunələr səsləndirildi.

Bu sırada “Nüşabə ilə İskəndərin görüşü”, “Kərpickəsən kişinin dastanı”, “Xeyir və Şər” adlı bədii kompozisiyalar, “Sirlər xəzinəsi”ndən parçalar maraqla qarşılandı. N.Gəncəvinin Azərbaycan və avar dillərində səsləndirilən hikmətli kəlamları da tədbirə xüsusi rəng qatdı. Azsaylı xalqların dillərində Azərbaycanın müxtəlif rayonlarından – Qusar, Qax, Zaqatala, Balakəndən göndərilmiş videokadrlar da maraqla izlənildi.

Festival proqramına daxil edilən “Nizami və musiqi dünyası” adlı musiqi axşamı da rəngarəngliyi ilə göz oxşadı. Dekabrın 8-də Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında reallaşan tədbirdə Nizami əsərlərinə bəstələnən və obrazına ithaf olunan musiqi əsərləri ifa olundu. Musiqi axşamı həm də uşaq və gənclərin təqdimatında böyük ədibin əbədiyaşar irsinə yeni nəsillərin sevgi və marağının nümayişi idi.

Klassik şeir və musiqinin vəhdətində bir-birindən fərqli ifalar nümayiş etdirən Bakı Xoreoqrafiya Akademiyası, Cövdət Hacıyev adına 3, Rauf Hacıyev adına 15, Müslüm Maqomayev adına 26 və Binə qəsəbəsindəki 24 saylı onbirillik Musiqi məktəblərinin, eləcə də Ağdam rayonu Xan Şuşinski adına Uşaq muğam, Bülbül adına Orta İxtisas Musiqi məktəblərinin şagirdləri, 5 nömrəli Uşaq-gənclər inkişaf mərkəzinin istedadlı üzvləri konsertə gələnlərə xoş ovqat bəxş etdilər.



Onu da qeyd edək ki, tədbirlərdə Azərbaycan Respublikası Ombudsman Aparatından, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən nümayəndələr, uşaqların sevimli yazıçı və bəstəkarları, mədəniyyət və incəsənət xadimləri iştirak edirdilər.

Uşaq və yeniyetmələrlə yanaşı, böyüklər üçün də maraqlı proqram tərtib edən festival təşkilatçıları “Söz mülkünün ustadı” adlı ailəvi onlayn viktorina da keçirdilər. Festivalın növbəti günündə Respublika Uşaq Kitabxanasının saytı və sosial şəbəkələrdəki hesabları üzərindən Nizami Gəncəvinin həyat və yaradıcılığı haqqında 50 sualdan ibarət onlayn viktorina böyük şair haqqında məlumatlılığı artırmaq məqsədi daşıyırdı. Qalib ailələrə Nizami Gəncəvinin əsərləri hədiyyə olundu.

Onu da qeyd edək ki, Nizami Gəncəvi yaradıcılığının bir daha öyrənilməsi, tanıdılması və gələcək nəsillərə çatdırılması məqsədilə reallaşan festival dekabrın 13-də “Zoom” platforması üzərindən “Söz sənəti mülkünün sultanı” adlı elmi konfransla başa çatacaq.

**HƏMİDƏ**

# “Nobel mükafatı alanda öncə 96 yaşlı müəllimimə xəbər verdim”

## Professor Əziz Sancar: “Gənclərimizin elmi fəaliyyətini ölkələrimizdə davam etdirməsini istəyiriksə, onlara bütün imkan və şəraiti yaratmalıyıq”

ABŞ-ın Şimali Karolina Universiteti Biokimya və biofizika fakültəsinin professoru, kimya üzrə Nobel mükafatı laureatı, böyük türk alimi Əziz Sancar bu günlərdə UNEC-də təşkil olunan İqtisadi Forumda iştirak etmək üçün Bakıda səfərdə oldu. Dünya şöhrətli alimlə görüşüb həmsöhbət olduq.

*– Dəyərli hocamız, Mardində səkkiz uşaqlı ailədə doğulmusunuz. O illərə qayıdaq...*

– Doğrudur. Fermer ailəsində doğulmuşam. Səkkiz bacı-qardaş idik. Bağçamız, tarlamız vardı. Günümüz orada keçərdi. Çox kasıb deyildik, amma ibtidai siniflərdə oxuyanda ayaqqabını ancaq məktəbə geyinərdik. Anam Atatürk sevdalısı olduğu üçün hamımızın təhsil almasından ötrü əlindən gələni etdi. Bacılarımsa yalnız ibtidai təhsil ala bildilər.

*– Deyəsən, futbolçu olmaq istəmisiniz...*

– Bəli. Çox yaxşı qapıçı idim. Mardində həvəskar futbol komandalarında oynayırdım. Bir gün bizim aramızdan peşəkar komandaya oyunçular seçməyə gəlmişdilər. Boyum kifayət qədər hündür olmadığı üçün növbəti mərhələyə keçə bilmədim.

*– Və elm sahəsində ən uca zirvəyə çatdınız... Nobel mükafatını aldığınızı öyrənəndə bu sevinci ilk kiminlə paylaşmaq istədiniz?*

– Həyat yoldaşımla. Doğrudur, o məndən öncə artıq bilirdi. Amma Türkiyədəki doğmalarıma zəng etmədim. Çünki ağlayacaqlarını, sevincdən həyəcanlanacaqlarını bilirdim. Odur ki, xəbəri vermək üçün bir neçə gün gözlədim. Ən əsası isə 96 yaşlı müəllimimlə əlaqə saxladım. İnanın, çox xoşbəxt oldu.

*– Bu gün istər azərbaycanlı, istərsə də türkiyəli gənclərimiz təhsil almaq üçün Avropaya, Amerikaya üz tutur. Lakin çox vaxt Vətənə dönmür, elmi fəaliyyətlərini qürbətdə davam etdirirlər. Sizcə, onları geri qaytarmağın uğurlu formulu varmı?*

– Azərbaycandakı mövcud akademik vəziyyətdən xəbərsizəm. Lakin mən Amerikada təhsilimi tamamlayıb, geri dönmək istəyirdim. Bir neçə seçim arasında Diyarbəkir Universiteti üzərində dayandım. Çünki Mardinə çox yaxın idi. Müəllimlərdən məsləhət aldım. Öyrəndim ki, bütövlükdə Tibb fakültəsinin büdcəsi mənim Amerikadakı laboratoriyamın büdcəsindən azdır. Orada Amerika, Avropa səviyyəsində tədqiqat aparmaq, elm öyrətmək mümkün deyildi. Övladlarımızın elmi fəaliyyətlərini ölkələrimizdə davam etdirmələrini istəyiriksə, onlara bütün imkan və şəraiti yaratmalıyıq. Türkiyədə xarici ölkələrdən məhsul gətirmək çox çətindir. Bu problemlər aradan qalxmalıdır. Gənc alimlərin heç bir maddi və mənəvi sıxıntısı olmamalıdır.

*– Qızların təhsilli olması, əmin addımlarla irəliləməsi üçün əlinizdən gələn, hətta gəlməyən hər şeyi etməyə çalışırsınız...*



– Qızların oxuması çox önəmlidir. Təhsil qızlara cəsarət verir. Bu, məni çox sevindirir. Sizə maraqlı bir əhvalat danışacam. Türkiyədə idim. Mənimlə mötəbər görüş təşkil olunmuşdu. 8-9 yaşlı qızcığaz hazırladığı layihəni mənə göstərməyə gəlmişdi. Yanımda dörd mühafizəçi vardı. Sən demə, qızı mənə yaxın gəlməyə qoymayıblar. Cüssəli cangüdənlərlə mübahisə etdi. Yenə icazə vermədilər. O, incə əlləri ilə mühafizəçilərə yumruq vurmuşdu (gülürük). Bu, mənim çox xoşuma gəldi. Qızlara cəsarət verə bilirəmsə, elmə sövq edirəmsə, dünyada məndən xoşbəxti yoxdur. Amerikada qurduğumuz fond vasitəsilə oxumaq imkanı olmayan qızlarımızın təhsil haqqını ödəyirik. Hazırda yanımda üç tələbəm var, üçü də qızdır.

*– Nə gözəl. Qızlarımızın təhsilinə göstərdiyiniz doğmalıq həm də illər boyu Amerikada yaşamağınıza rəğmən dilinizə, adətlərinizə də olan sədaqətinizdən xəbər verir. Qürbətdə günləriniz necə keçir?*

### “Heç vaxt Amerikada özümü evimdəki kimi hiss etməmişəm”

– Açıq deyəcəm. Heç vaxt Amerikada özümü evimdəki kimi hiss etməmişəm. Doğrudur, həyatımın böyük hissəsi laboratoriyada keçir. Amma ailə, millət ali məfhumdur. Onun yoxluğunu daim hiss edirəm. Mədəniyyət, din, dil fərqimiz var. Bizim haqqımızda heç nə bilmirlər. Xanımım amerikalıdır. Onunla tanış olanda türk olduğumu söylədim. İlk sualı bu oldu: “Türklər farsca danışırlar, yoxsa ərəbcə?”. Amma indi sizdən, məndən daha çox türkdür.

*– XXI əsrdə, elmin texnologiyanın bu qədər inkişaf etdiyi dövrdə pandemiya bəlasına çarə tapa bilmirik. Yəni bir yandan tərəqqi, digər tərəfdən tənəzzül...*

– “Pandemiya” sözünü eşitməkdən bezmişik. Bir gün universitetimizin rektorundan əmr gəldi ki, bütün laboratoriyalar bağlanmalıdır. Təkcə elmi rəhbərlər gələ bilərlər. Assistentlərim olmadan, tək laboratoriyada nə edəcəm. Bir il ərzində belə davam etdi. Hamımız depressiyada idik. Hətta intihar edən əməkdaşlarımız da oldu. Xüsusən də türk tələbə qızlarımız Amerikada universitetlərin yataqxanalarında qalırlar. Tanışları, dostları yoxdur. Ailələrindən çox uzaqdadırlar. Amma indi şərtlər bir qədər yumşalıb.

*– Ümid edək ki, ən çətin günlərimiz geridə qaldı. Gələcəyin insanını necə təsəvvür edirsiniz?*

– Dəyişiklik görmürəm. Bunu çox yerdə söyləmirəm. 40 ildir Amerikada yaşayıram, çox yaxşı dostlarım var. Amma Amerikanın İraq, Suriya, yaxud Əfqanıstanda törətdiyi təxribatları görürsünüz. Bunu görüb “insanlıq doğru yoldadır”, “hər şey yaxşı olacaq” deyə bilmərik. Elə ermənilərin Qarabağda törətdiklərini götürək. Biz onlarla tarixən dost olmağa cəhd etmişik. Lakin onlar bizi istəmirlər. Atalarının atasının inandırdıqları yalanlara inanıblar.

*– DNT-ləri dəyişə bilmərik?*

– (gülür) Allah dəyişdirsin. Bizim qüvvəmiz çatmır.

*– Hocam, Azərbaycana səfəriniz haqda da təəssüratınızı öyrənmək istərdim.*

– Azərbaycan mənim vətənimdir. Bunu hər yerdə deyirəm. Dəvət üçün təşkilatçılara dərin minnətdarlığımı bildirirəm. Şuşada oldum, Allaha şükrümü ifadə etmək üçün iki rükət namaz da qıldım. Bundan böyük xoşbəxtlik yoxdur.

**Leyla SARABİ**

# Ruhu oxşayan musiqi əsərlərinin müəllifi

## Tofiq Bakıxanovun 90 illiyinə həsr olunan festival çərçivəsində elmi konfrans

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi və Azərbaycan Bəstəkarlar İttifaqının (ABİ) təşkilatçılığı ilə görkəmli bəstəkar, Xalq artisti, professor Tofiq Bakıxanovun 90 illik yubileyinə həsr edilən musiqi festivalı keçirildi. 1-8 dekabr tarixini əhatə edən festival çərçivəsində bəstəkarın zəngin yaradıcılığını müxtəlif yönlərdən təqdim edən konsert və tədbirlər gerçəkləşdi.

Dekabrın 7-də Bəstəkarlar İttifaqının Ü.Hacıbəyli adına konsert salonunda keçirilən elmi konfrans da festivalın yaddaqalan tədbirlərindən oldu.

İttifaqın sədri, Xalq artisti Firəngiz Əlizadə çıxış edərək Tofiq Bakıxanovun yaradıcılığına həsr olunmuş festivaldan danışdı. Qeyd etdi ki, Tofiq müəllim milli tariximizə onlarla ali rütbəli hərbçi, ictimai və mədəniyyət xadimi bəxş etmiş nəslin ənənələrini ləyaqətlə davam etdirərək Azərbaycan incəsənətinə əvəzsiz töhfələr verib: “Tofiq Bakıxanovun yaradıcılığı bənzərsizdir. O, professional bir sənətkar kimi musiqinin müxtəlif janrlarına





müraciət edib, bir-birindən gözəl əsərlər yaradıb. İnsanların ruhunu oxşayan ecazkar əsərləri insanlar, xalqlar və ölkələr arasında dostluğu, qardaşlığı və sülhü təbliğ edib. Bəstəkar rus, gürcü, özbək, qazax şairlərinin əsərlərinə onlarca musiqi yazıb. Görkəmli sənətkarın bəstələri Azərbaycanla yanaşı, bir çox ölkələrdə də böyük maraqla dinlənilir”.

Firəngiz Əlizadə çıxışının sonunda Tofiq Bakıxanova yubileyi münasibətilə təbriklərini çatdırdı və Bəstəkarlar İttifaqının fəxri diplomunu sənətkara təqdim etdi.

ABİ-nin katibi, Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova “Tofiq Bakıxanovun simfonik musiqisi” mövzusunda çıxışında diqqətə çatdırdı ki, bəstəkarın sənətkarlığı kamillik zirvəsindədir. O, bu gün musiqi ictimaiyyətində bənzərsiz əsərləri ilə musiqi mədəniyyətimizin inkişafına xidmət edən bəstəkar, mahir ifaçılıq imkanlarına malik skripkaçı, gözəl pedaqoq, musiqi sənətinin müxtəlif problemlərinə həsr olunmuş elmi-publisistik məqalələrin müəllifi və fəal ictimai xadim kimi tanınır.

Bildirildi ki, Azərbaycan musiqisində viola, violonçel, fleyta üçün sonata və konsert janrına, o cümlədən, qoboy, klarnet, truba alətləri üçün konsert janrına ilk dəfə olaraq Tofiq Bakıxanov müraciət edib. Eyni zamanda üç musiqili komediya, üç balet, bir sıra mahnı və romanslar bəstələyib. Bəstəkarın yaradıcılıq irsində 6 simfoniya, 5 simfonik muğam, 5 simfonik poema, simfonik süita, uvertüra və s. əsərlər də xüsusi yer tutur.

Konfransda daha sonra Əməkdar müəllim, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ülviyyə İmanovanın “Tofiq Bakıxanovun balet yaradıcılığı”, Əməkdar incəsənət xadimi, fəlsəfə elmləri doktoru, professor Telman Hacıyevin “Tofiq Bakıxanovun fleyta üçün yazılmış əsərlərinə bir nəzər” və Nərgiz Qulamovanın “Tofiq Bakıxanovun yaradıcılıq irsi” mövzusunda məruzələri dinlənildi.

Məruzələrdə bildirildi ki, 8 dekabr 1930-cu ildə Bakıda görkəmli tarzən-pedaqoq Əhməd Bakıxanovun ailəsində dünyaya göz açan Tofiq Bakıxanov erkən çağlardan musiqiyə maraq göstərib. Skripka aləti üzrə təhsil alıb. Çalışqanlığı ilə dahi bəstəkar Üzeyir Hacıbəylinin diqqətini çəkib. Onun xeyir-duası ilə böyük sənətə qədəm qoyub. Azərbaycan Dövlət Konservatoriyasında görkəmli bəstəkar Qara Qarayevin sinfində təhsil alıb. Yaradıcılıq fəaliyyəti dövründə onun ənənələrini ləyaqətlə davam etdirib. Müxtəlif janrlı, rəngarəng məzmunlu əsərlərini ifaçılar repertuarlarına daxil edib. Onun əsərləri ölkəmizin hüdudlarından kənarda da (Fransa, Rusiya, Türkiyə, İran və s.) teatr və konsert salonlarının bəzəyi olub.

Sonda yubilyar bəstəkar çıxış edərək tədbir iştirakçılarına öz dərin təşəkkürünü bildirdi.

Tədbirdə Tofiq Bakıxanovun “Violin ilə orkestr üçün 1 saylı konsert”inin yeni çap olunmuş not nəşri (klavir) təqdim edildi. Eyni zamanda həmin əsərin müəllifin ifasında (fortepiano partiyası - Yelena Mustafayeva) AzTV-nin fondunda saxlanılan lent yazısı səsləndirildi.

**Savalan FƏRƏCOV**

# “Tıq-tıq xanım” dağ yəhudilərinin dilində



Dekabrın 7-də Abdulla Şaiqin Mənzil-Muzeyində Abdulla Şaiqin ”Tıq-tıq xanım” əsərinin dağ yəhudilərinin (cuuri) dilində nəşrinin (”Tiq-tiq xonum”) təqdimatı keçirildi. Azərbaycan uşaq ədəbiyyatının banilərindən biri, görkəmli ədib, pedaqoq, ədəbiyyatşünas, tərcüməçi, Əməkdar incəsənət xadimi Abdulla Şaiqin (1881-1959) 140 illik yubileyinə həsr olunmuş əsərin tərcüməçisi İsrail Yazıçılar Birliyinin üzvü Şuşanna Abramovadır.

Təqdimatda qonaqları salamlayan muzeyin direktoru Ülkər Talıbzadə qeyd etdi ki, ədibin anadan olmasının 140 illiyi ilə əlaqədar ölkəmizdə bir sıra tədbirlər keçirilir və İsraildə nəşr olunan “Tiq-tiq xonum” kitabının təqdimatı bu silsilədəndir: “Biz bu təşəbbüsün həyata keçirilməsinə sevindik, Abdulla Şaiqin əsərinin tərcüməsi həm onun nəslinə, həm də yaradıcılıq irsinin pərəstişkarlarına böyük hədiyyə oldu. Hamımız bilirik ki, kitab ən gözəl hədiyyədir. Gələcək nəsillərə ötürülür, dünyanı öyrənməyimizə kömək edir”.

“Azİz” İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyası İdarə heyətinin üzvü, Azərbaycan-İsrail Mədəniyyət Mərkəzinin direktoru Yeganə Salman assosiasiyasının fəaliyyətindən danışdı. Diqqətə çatdırdı ki, əsas fəaliyyət istiqamətlərindən biri Azərbaycan mədəniyyətinin İsraildə və yəhudi mədəniyyətinin Azərbaycanda qarşılıqlı təbliğidir.

“Azİz”-in icraçı direktoru Şaul Siman Tov kitabın nəşrində əməyi olan hər kəsə minnətdarlığını bildirdi: “Biz şadıq ki, Abdulla Şaiqin yaradıcılıq irsinin qorunub saxlanılmasına və təbliğinə öz töhfəmizi verə bildik. Bundan əlavə, kitab dağ yəhudilərinin cuuri dilində nəşr olunub və “Qırmızı kitab”da ölü dillər siyahısına daxil olan bu dilin qorunub saxlanılmasına öz töhfəsini verəcək”.

İcraçı direktor İsrail və Azərbaycanın dost ölkə olaraq həm siyasi, həm də mədəni sahədə əməkdaşlığından məmnunluğunu ifadə etdi. Dedi ki, mədəni sahədə çoxsaylı layihələri bundan sonra da davam edəcək.

“Tıq-tıq xanım” cizgi filminin məşhur mahnısının ifaçısı, Xalq artisti Flora Kərimova nəşri yüksək qiymətləndirərək səsləndirdiyi ifanın tarixçəsi ilə bağlı xatirələrini bölüşdü.




Mədəniyyət Nazirliyi Muzeylər və daşınan mədəni irs sektorunun müdiri Altun Mikayıllı nəşri iki xalqın bir-birinə yaxınlaşması baxımından mühüm addım kimi dəyərləndirdi. O, Abdulla Şaiqin Azərbaycan uşaq ədəbiyyatındakı rolundan söz açaraq bildirdi ki, onun irsi bütün dövrlər üçün aktual olaraq qalacaq: “Böyük ədibi yad etməklə onun Azərbaycan ədəbiyyatının inkişafındakı əməyinin müqabilində bir daha böyük hörmət və ehtiramımızı bildirmiş oluruq. Abdulla Şaiq Azərbaycanda gənc nəslin bədii-estetik zövqünün formalaşmasında xidmətləri olan şəxsiyyətdir. O, gələcəyi aydın görən bir insan olduğu üçün bu gün də onun yazdıqları aktuallığını qoruyub saxlaya bilib”.

İsrailin Azərbaycandakı Səfirliyi nəzdində “Nativ” təşkilatının nümayəndəsi Mark İfraimov, Azərbaycan Yazıçılar Birliyi Uşaq ədəbiyyatı şöbəsinin müdiri Qəşəm Nəcəfzadə, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Arzu Hacıyeva çıxış edərək nəşr haqqında fikirlərini bölüşdülər. Vurğulandı ki, “Tıq-tıq xanım” həm də multikultural dəyərləri, sülhü təbliğ edən bir əsər kimi qiymətləndirilməlidir. Dost axtaran, ətrafındakıları dostluğa, sülhə səsləyən Tıq-tıq xanım bunun əksi ilə qarşılaşır.

“Tiq-tiq xonum” kitabı “Azİz”, Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsi, Dağ Yəhudilərinin Beynəlxalq Xeyriyyə Fondu, Abdulla Şaiqin Mənzil-Muzeyinin birgə iştirakı ilə nəşr edilib. Kitabın nəşrinə həmçinin “Ordan-Burdan” uşaq “Youtube” kanalı, İsraildəki Azərbaycan Mədəniyyət Mərkəzi və qurumlar dəstək verib.

**LALƏ**

# Səmada qalan gənclik

Ötən həftə Azərbaycan Kinematoqrafçılar İttifaqının ”Kino evi”ndə maraqlı bir filmin təqdimatı oldu. Sənədli film mülki aviasiyada azərbaycanca ilk elan verən təyyarə bələdçisinin ömür yolundan bəhs edir.

“Aranfilm” Yaradıcılıq Mərkəzinin istehsalı olan “Səmada qalan gənclik” adlı film təkcə ekran işinin qəhrəmanı Zemfira Əliyevanın yox, onun timsalında “dəmir qanadlı mələklər”in həyatına ümumi nəzər kimi də maraqlı idi.

Təyyarə bələdçisinin ömür yolunu, səmada keçən gözəl illərini, iş prosesinin incəciklərini, eləcə də bu sahədə azərbaycanlı kadrların yetişdirilmə prosesini mərhələli şəkildə, həm də bir qəhrəmanın timsalında təqdim edən film tamaşaçılara köhnə Bakının nostalgiyasını da yaşatmış oldu. Ağ-qara kadrların fonunda ötən illərə boylanan qəhrəmanımız köhnə Bakı məhəllələrindən, 60-70-ci illərin paytaxt həyatından maraqlı, tamaşaçı üçün yaddaş xəzinəsi hesab olunacaq təəssüratını da bölüşürdü. Beləcə, biz bir cəsarətli, ilklikdən qorxmayan azərbaycanlı qızla birlikdə addımlayan insanları da xatırlamış olduq. Həm də film vasitəsilə tamaşaçılarda mülki aviasiya tariximiz, bu sahədə çalışan mütəxəssislərimiz haqqında da müəyyən təsəvvür yarandı.

Zemfira xanımla çiyin-çiyinə çalışmış xanımlar – əksəriyyəti qonşu ölkələrə köçsələr də – o illərin xatirələri ilə bu filmdə yenidən bir araya gəlmək imkanı tapdılar.

Filmdə qəhrəmanın qızı, Akademik Musiqili Teatrın aktrisası Ülviyyə Əliyeva da iştirak edir. O, tamaşaçılara anası haqqında maraqlı məlumatlar verir, uşaqlıq xatirələrini bölüşür.

Filmin ssenari müəllifi və rejissoru Babək Abbaszadə, operatoru Rafiq Əliyev, direktoru Qənirə Qurbanlı, bədii rəhbəri Tahir Tahiroviç, prodüseri İqbal Məmmədəliyevdir.

Onu da qeyd edək ki, 1966-cı ildə peşə fəaliyyətinə başlayan Zemfira Əliyeva, ilk azərbaycanlı təyyarə bələdçisi olmaqla yanaşı, eyni zamanda Azərbaycan dilində elan mətni tərcümə edib səsləndirən şəxs kimi də tarixə düşüb. Ömrünün gənc illərini bələdçi kimi çalışan Zemfira Əliyeva sonralar hava limanında müxtəlif vəzifələrdə çalışıb.

**HƏMİDƏ**

# Albanşünas alim Fəridə Məmmədova dünyasını dəyişib

Görkəmli tarixçi alim, AMEA Tarix İnstitutu Azərbaycanın tarixi coğrafiyası şöbəsinin müdiri, akademiyanın müxbir üzvü Fəridə Məmmədova 8 dekabr 2021-ci il tarixdə, 85 yaşında dünyasını dəyişib.

Fəridə Cəfər qızı Məmmədova 1936-cı il avqustun 8-də Şirvan şəhərində (keçmiş Əli Bayramlı) anadan olub. 1955–1960-cı illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Tarix fakültəsində təhsil alıb. 1960-cı ildən Azərbaycan EA-nın Tarix İnstitutunda işləməyə başlayıb, 2002-ci ildə Azərbaycanın tarixi coğrafiyası (hazırda "Azərbaycanın tarixi coğrafiyası və demoqrafiyası) şöbəsinin müdiri vəzifəsinə təyin olunub.



1962–1969-cu illərdə Leninqrad (indiki Sankt-Peterburq) şəhərində SSRİ EA Şərqşünaslıq İnstitutunda təcrübə keçib və həmin elmi qurumun aspirantı olub. Qədim fars (mixi yazı), orta fars (pəhləvi), qədim erməni (qrabar) və qədim gürcü dillərini də öyrənən alim daha qədim mənbələrin araşdırılması istiqamətində yorulmadan çalışıb.

Fəridə Məmmədova 1971-ci ildə "Musa Kalankatlının "Alban tarixi" Qafqaz Albaniyasının ictimai quruluşunun mənbəyi kimi" mövzusunda namizədlik (fəlsəfə doktoru), 1987-ci ildə "Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası" mövzusunda doktorluq dissertasiyalarını müdafiə edib. O, 1978-ci ildən Bakı Dövlət Universitetində, Azərbaycan Dövlət Pedaqoji Universitetində, 1997–1998-ci illərdə Xəzər Universitetində və 1998-ci ildən Qərb Universitetində dərs deyib. 2001-ci ildə AMEA-nın müxbir üzvü seçilən alim 2006-cı ildən Milli Aviasiya Akademiyasında İctimai fənlər kafedrasının müdiri vəzifəsində çalışıb.

Azərbaycan tarix elminin inkişafında xidmətləri yüksək qiymətləndirilən Fəridə Məmmədova "Əməkdar elm xadimi" fəxri adına, Dövlət mükafatına, "Şöhrət" ordeninə layiq görülüb.

Alimin "Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası" (1986), "Azərbaycanın tarixi coğrafiyası" (kollektiv monoqrafiya, 1988), "Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası" (1993), "Qafqaz Albaniyasında xristianlıq" (2003), "Qafqaz Albaniyası və albanlar" (2005) monoqrafiyası qədim Azərbaycan dövləti olan Qafqaz Albaniyasının tarixinə işıq salan əhəmiyyətli əsərlərdir. Müəllif "Qafqaz Albaniyası və albanlar" əsərində qeyd edib ki, 1836-cı ildən başlayaraq erməni kilsəsi alban etno-mədəni irsinə yiyələnmək məqsədilə alban ədəbiyyatını erməni dilinə çevirib və onu erməni tarixinə uyğunlaşdırıb. Alim həmçinin sübut edib ki, Qarabağ heç vaxt Qafqaz hüdudlarından kənarda, Kiçik Asiya, Şərqi Anadolu ərazisində yaranmış siyasi-inzibati qurumların tərkibində olmayıb.

Allah rəhmət eləsin.

# Professor Aydın Balayev vəfat edib

Tarix üzrə elmlər doktoru, professor Aydın Balayev dekabrın 6-da vəfat edib.



Aydın Hüseynağa oğlu Balayev 19 noyabr 1956-cı ildə Bakıda anadan olub. Bakı Dövlət Universitetinin Tarix fakültəsində və M.V.Lomonosov adına Moskva Dövlət Universitetində təhsil alıb. "Azərbaycanın milli qrupları arasında etnodilçilik prosesləri" mövzusunda namizədlik (fəlsəfə doktoru), "1917–1918-ci illərdə Azərbaycan milli hərəkatı" mövzusunda elmlər doktorluğu dissertasiyalarını müdafiə edib.

Alim XX əsrin əvvəlində ölkəmizdə milli hərəkatın təşəkkülü, Azərbaycan türklərinin milli ideologiyasının və milli identikliyinin formalaşması proseslərini araşdırıb.

Aydın Balayev eyni zamanda çağdaş dövrdə Azərbaycanda gedən etnososioloji prosesləri də diqqətdə saxlayıb, bununla bağlı elmi əsərlər yazıb.

Alimin "1917-1918-ci illərdə Azərbaycan istiqlal hərəkatı" (1998), "XIX-XX əsrlərdə etnolinqvistik proseslər" (2005), "Fevral inqilabı və milli nailiyyətlər" (2008, Moskva), "Məhəmməd Əmin Rəsulzadə" (2009, Moskva), "Azərbaycan türkləri: milli şüur prosesləri" (2010) və digər monoqrafiya və kitabları elmi ictimaiyyət tərəfindən maraqla qarşılanıb.

Ruhu şad olsun.

# Tarixçi Dilavər Əzimlinin xatirəsi anılıb

Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunda mərhum tarixçi alim, tarix üzrə fəlsəfə doktoru, dosent Dilavər Əzimlinin anım tədbiri keçirilib.

İnstitutun Orta əsrlər tarixi şöbəsinin müdiri tarix elmləri doktoru Tofiq Nəcəfli alimin ömür yolundan və elmi fəaliyyətindən danışıb.

İnstitutun icraçı direktoru, dosent Cəbi Bəhramov Dilavər Əzimlini əsl ziyalı, vətənpərvər alim kimi dəyərləndirərək onun tarix elminə verdiyi töhfələrdən bəhs edib.

Professor Şahin Fərzəliyev, tarix elmləri doktorları Eynulla Mədətli, Xeyirbəy Qasımov, dosentlər Hacı Həsənov, Mübariz Ağalarlı, Fərəh Hüseyn, AMEA Şərqşünaslıq İnstitutunun əməkdaşı Mirzə Ənsərli və digər çıxış edənlər Dilavər Əzimlinin tarix elminə verdiyi töhfələrdən, bir müəllim kimi təhsil fəaliyyətindən, yüksək insani keyfiyyətlərindən söz açıblar.

Dilavər Əzimlinin və görkəmli səfəvişünas Oqtay Əfəndiyev şəxsi kitabxanası əsasında Orta əsrlər tarixi şöbəsində yaradılmış fond da iştirakçılara təqdim olunub.

Sonda mərhumun həyat yoldaşı Arzu Qazıyeva tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkür edərək mərhum tarixçi alimə verilən bu dəyərə görə minnətdarlığını bildirib.

AMEA Tarix İnstitutunun Azərbaycanın orta əsrlər tarixi şöbəsinin aparıcı elmi işçisi olmuş Dilavər Əzimli 1959-cu il dekabrın 5-də Cəlilabad rayonunun Ağdaş kəndində doğulub. 2003-cü ildən AMEA Tarix İnstitutunda çalışıb, eyni zamanda Azərbaycan Dövlət Pedaqoji Universitetində Türk və Şərqi Avropa xalqları kafedrasının müəllimi olub. 2021-ci il martın 3-də dünyasını dəyişib.

# Tunc görkəmdə dostlarının yanına qayıtdı...

## "Sədərək" firması şəhid əməkdaşının xatirəsini əbədiləşdirib

Nəcməddin Sarkayev 1999-cu ildə Balakən rayonunun Şərif kəndində anadan olmuşdu. 2017-ci ildə doğma kənddə şəhid N.Davudov adına 1 saylı tam orta məktəbi bitirmişdi. Həqiqi hərbi xidməti Tərtər rayonunda keçmişdi. 2019-cu ildə əsgərlikdən qayıtdıqdan sonra Bakıdakı "Sədərək" Ticarət Mərkəzində "Sabit Mühafizə Xidməti" MMC-də işə qəbul olunmuşdu. Qısa müddətdə səmimiyyəti, mehribanlığı və işgüzarlığına görə kollektivin hörmətini qazanmışdı.



2020-ci ilin 27 sentyabrında Vətən müharibəsi başlayanda o da vətənpərvər gənc kimi könüllü olaraq cəbhəyə yola düşdü. Müharibənin od-alovundan keçdi. Döyüşlərin birində yaralandı. Müalicəsi bitər-bitməz yenidən cəbhəyə, döyüş yoldaşlarının yanına yollandı. Noyabrın 6-da Suqovuşan istiqamətində döyüşdə qəhrəmancasına həlak oldu. Doğulduğu Balakən rayonuna şəhid kimi qayıtdı...

İndi isə o, vaxtilə bir yerdə çalışdığı kollektivdəki dostlarının yanına qayıdıb. Məğrur görkəmdə, tunc geyimdə...

Dekabrın 8-də "Sədərək" Ticarət Mərkəzində Vətən müharibəsi şəhidi Nəcməddin Əli oğlu Sarkayevin büstünün açılış mərasimi keçirilib. Tədbirdə "Sədərək" firmasının rəhbərliyi, rəsmilər, millət vəkilləri, Vətən müharibəsi iştirakçıları, şəhid ailələrinin üzvləri, sahibkarlar, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Büst "Sədərək" firmasının inzibati işçiləri, ticarət mərkəzində çalışan sahibkarlar, sahibkarları özündə birləşdirən "Sədərək" Xeyriyyə Cəmiyyətinin üzvləri və Nəcməddin Sarkayevin vaxtilə əməkdaşı olduğu "Sabit Mühafizə Xidməti" MMC-nin rəhbər heyəti tərəfindən ianə olunan vəsait hesabına hazırlanaraq ucaldılıb.

Mərasimdə əvvəlcə Dövlət himni səsləndirilib, şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimi "Sədərək" firmasının direktor müavini Ənvər Qədimov açaraq Vətən müharibəsində qazandığımız Zəfərin Azərbaycan tarixinin şanlı səhifəsi olduğunu vurğulayıb. Bildirib ki, müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə, Azərbaycan Ordusunun şücaəti sayəsində əldə olunan bu Qələbə eyni zamanda ölkəmizdəki birlik və həmrəyliyin təcəssümüdür. Qeyd olunub ki, "Sədərək" firması Vətən müharibəsi zamanı Silahlı Qüvvələrimizə yardım, müharibədən sonra şəhid ailələri və qazilərə maddi-mənəvi dəstək göstərib və bu diqqət və qayğı gələcəkdə də davam edəcək.

Qaradağ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Emil Abbasov bildirib ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən Nəcməddin Sarkayev kimi igidlərin xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq. Vurğulayıb ki, şəhidimizin vaxtilə çalışdığı yerdə büstünün ucaldılması, xatirəsinin əbədiləşdirilməsi, həmçinin gənclərimiz üçün örnək bir ömür yolunun, vətənpərvərlik nümunəsinin təbliğidir.

Milli Məclisin deputatı Nəsib Məhəməliyev qeyd edib ki, bu gün biz şəhid Nəcməddin Sarkayev kimi igidlərin sayəsində Vətən müharibəsi haqqında qürurla danışırıq. Dünyaya sübut etdik ki, Azərbaycan xalqı qəhrəmanlar yetirən xalqdır.

Millət vəkili Fazil Mustafa bildirib ki, minlərlə Azərbaycan övladı Vətən uğrunda canından keçib: "Şəhidlərimiz hansı bölgədən, hansı rayondan və kənddən olmağından asılı olmayaraq hamımızın əzizi, dəyərlisi oldular. Allahdan bütün şəhidlərimizə rəhmət diləyirəm".

Mərasimdə daha sonra ticarət mərkəzində çalışan sahibkarlardan Murad Əliyev, Rahib Məmmədov və başqaları çıxış ediblər.

Şəhid Nəcməddin Sarkayevin anası Tinay Sarkayeva çıxış edərək göstərilən diqqət və qayğıya görə firmanın rəhbərliyinə minnətdarlığını bildirib.

Sonra büstün üzərindən ağ örtük götürülüb. Abidə önünə əkliller qoyulub, tər gül-çiçək dəstələri düzülüb.

Ticarət mərkəzinin yaxınlığında salınan "Şəhidlər bağı"nın girişində Vətən müharibəsi şəhidlərinin portretləri vurulmuş "Biz sizlərlə qürur duyuruq!" fotostendinin təqdimatı olub. "Şəhidlər bağı"nda ağaclar əkilib. Sonda "Şah" hoteldə ehsan süfrəsi açılıb.

Qeyd edək ki, şəhid Nəcməddin Sarkayev Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

# Dillimizin saflığı uğrunda yorulmadan çalışan alim

## Professor Qara Məşədiyev vəfat edib

Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun Toponimika sektorunun müdiri, Milli Məclis yanında Toponimiya Komissiyasının üzvü, filologiya elmləri doktoru, professor Qara Məşədiyev dekabrın 7-də, 82 yaşında vəfat edib.

Qara İbrahim oğlu Məşədiyev 15 may 1939-cu ildə Gədəbəy rayonunun Göyəmli kəndində dünyaya gəlib. 1956-cı ildə Çayrəsullu kənd orta məktəbini bitirib, 1961–1966-cı illərdə Azərbaycan Pedaqoji Dillər İnstitutunda (indiki ADU) təhsil alıb. 1966-cı ildən 1968-ci ilədək Gədəbəy rayonunun Maarif kənd səkkizillik məktəbində müəllim işləyib.

Qara Məşədiyev 1968-ci ildən Azərbaycan Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunda çalışmağa başlayıb, kiçik elmi işçidən şöbə müdiri vəzifəsinədək yol keçib. Dilçiliyin müxtəlif sahələrində, xüsusilə onomastika üzrə araşdırmalar aparıb, uzun illər institutun Onomastika şöbəsinə rəhbərlik edib.

Alim 1974-cü ildə "Müasir Azərbaycan ədəbi dilində adlıq cümlə" mövzusunda namizədlik (fəlsəfə doktoru) dissertasiyası, 1991-ci ildə "Qafqazın ərazi və tayfalarının təsviri materialları məcmuəsi"ndə (SMOMPK) qeydə alınmış onomastik vahidlərin tarixi-etimoloji təhlili" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1998-ci ildə professor elmi adı alıb.



Tanınmış alim "Müasir Azərbaycan dili" (1981), "Azərbaycan dilinin semasiologiyası" (1985), "Azərbaycan dilinin onomastikası" (1987), "Azərbaycan toponimlərinin ensiklopedik lüğəti" (iki cilddə, 2007) kitablarının müəlliflərindəndir. "Zaqafqaziyanın Azərbaycan toponimləri" (1990) və "Nitq hissələrinin semantikası (oçerklər)" (1998) və "Azərbaycan dilində ayamaların izahlı lüğəti" (2018) professor Qara Məşədiyevin diqqətəlayiq elmi əsərlərindəndir. O, eyni zamanda ölkəmizdə və xaricdə çap olunmuş 100-dən artıq elmi məqalənin müəllifidir.

Qara Məşədiyev Azərbaycan dilçilik elmini zənginləşdirən, öz dəst-xətti ilə seçilən elm xadimlərindən biridir. O, Azərbaycan dilçiliyinin istiqamətlərinin müəyyənləşdirilməsində, dilçiliyin aktual problemlərinin tədqiqində və tədrisində böyük xidmətlər göstərib. Alimin rəhbərliyi ilə 30-dan çox elmlər namizədi (fəlsəfə doktoru) və 6 elmlər doktoru yetişdirilib.

Xarici ölkələrdə keçirilən simpozium və elmi konfranslarda Azərbaycan elmini layiqincə təmsil edib.

Qara Məşədiyev illər öncə qəzetimizə müsahibəsində demişdi: "Dünya dilləri arasında Azərbaycan dili qədər saf, gözəl, oynaq, musiqili, başqa dillərə daha asan tərcümə olunan dil yoxdur. Çox incə, musiqili dilimiz var. Müstəqil ölkəyik, qapılarımız dünya ölkələrinin üzünə açıqdır. Ölkəmizdə xarici şirkətlər fəaliyyət göstərir. Təəssüf ki, şəhərimizdə çox adları ingilis dilində yazırlar ki, bu da dilin qanunlarını pozur. Düzdür, dünya dilləri ilə əlaqədə, münasibətdə olmalıyıq, beynəlxalq sözlər istər-istəməz dilimizə daxil olur. Onları qəbul etməliyik. Ancaq çalışıb dilimizə daxil olan sözlərin qarşılığını tapmalıyıq. Biz dilimizin qayğısına qalmalıyıq və onları kənar təsirlərdən qorumalıyıq".

Azərbaycan dilin zənginliyinin qorunması, saflığı uğrunda yorulmadan çalışan fədakar elm xadimlərindən biri də professor Qara Məşədiyev idi. Dilçilik elmimizdə böyük irs qoymuş alim haqqında bundan sonra keçmiş zamanda danışacağıq.

Qara Məşədiyev dekabrın 8-də Gədəbəy rayonunda, doğma yurdunda torpağa tapşırılıb.

Qəbri nurla dolsun.

# Qərbi Asiyada ibtidai incəsənətin yaranması, inkişafı və yayılması

## Qobustanda müştərək layihə üzrə tədqiqatlar davam edir

Qobustan Milli Tarix-Bədii Qoruğunun beynəlxalq əlaqələrinin inkişafı və bu ecazkar tarix yadigarının dünyada tanıdılması diqqətdə saxlanılır. Bununla bağlı xarici tərəfdaşlarla birgə layihələr həyata keçirilir. "Qərbi Asiyada ibtidai incəsənətin yaranması, inkişafı və yayılması: Qobustan" layihəsi də bu istiqamətdə reallaşdırılan diqqətəlayiq işlərdəndir.

İspaniyanın "PALARQ" fondu və İtaliya Xarici İşlər Nazirliyi tərəfindən maliyyələşdirilən layihənin bu günlərdə 2-ci mərhələsinə yekun vurulub. Layihə çərçivəsində arxeoloqlar Qobustan Milli Tarix-Bədii Qoruğunda mühafizə olunan arxeoloji artefaktlarla tanış olub, qayaüstü təsvir sahələrinə baxış keçiriblər.

Layihə çərçivəsində mütəxəssislər və qoruq əməkdaşları arasında Qobustan qayaüstü təsvirləri ilə Avropa qayaüstü incəsənətinin oxşar və fərqli cəhətləri, Paleolit dövrü incəsənəti, Qobustanda təbii mühit və ilkin məskunlaşma, burada aparılmış arxeoloji qazıntılar, qeydə alınmış arxeoloji materiallar, onların xronologiyası və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Eyni zamanda gələcəkdə bu istiqamətdə qarşılıqlı tədqiqat işlərinin davam etdirilməsi planlaşdırılıb.



İcra müddəti 3 il olan layihə qoruq ərazisindəki Böyükdaş dağının yuxarı səki sahəsində yerləşən "Ana zağa" və "Ovçular" mağaralarının, o cümlədən dağın aşağı səki sahəsində yerləşən 8 nömrəli qaya üzərindəki təsvirlərin, həmçinin Qobustan Milli Tarix-Bədii Qoruğunda qorunub saxlanılan arxeoloji materialların müasir elmi metodlarla öyrənilməsini nəzərdə tutur. Layihənin icrası Qobustanda ilkin məskunlaşma prosesinin, Paleolit dövrü qayaüstü təsvirləri və onların insanların həyatında tutduğu rolu müəyyənləşdirməyə imkan verməklə həm də qayaüstü təsvirlərin öyrənilməsində ən mühüm məsələlərdən olan xronologiya probleminə aydınlıq gətirilməsinə köməklik edəcək.

Qeyd edək ki, layihədə Marcos García Diez (Madrid Compultensa Universiteti, İspaniya), Manuel Vaquero Rodríguez (Rovira və Virgili Universiteti, İspaniya), Blanca Ochoa Fraile (Pais Vasco Universiteti, İspaniya), Dario Sigari (İtaliyanın Ferrara Universiteti, Portuqaliyanın Coimbra Universiteti) və Qobustan qoruğunun əməkdaşı Sevinc Şirinli iştirak edir.

Layihə üzrə tədqiqat işləri növbəti il davam etdiriləcək.

**Vəfa HÜSEYNOVA**
**Qobustan Milli Tarix-Bədii Qoruğunun elmi işçisi**

# Şəxsiyyəti ilə sənəti vəhdət təşkil edirdi





**Kinoya gəlmək, bu qəliz, mürəkkəb sənətdə çalışmaq istedadla yanaşı böyük zəhmət tələb edir. Uzun illər sənətin müxtəlif sahələrində (aktyor, film direktoru, rejissor assistenti) fəaliyyət göstərən, çalışqanlığına görə həmkarlarının, istedadına görə tamaşaçının rəğbətini qazanan Tələt Rəhmanov da milli kinomuzun sevilən simalarındandır.**

Kino çoxlarının həyat şərtlərini nizama salan yaşam mənbəyidir. Tələt Rəhmanovu da bu sənətə həyat yolunun dolanbac cığırları, qarşılaşdığı müəyyən çətinliklər gətirib. Bacarıqlı kino işçisi kimi o, ömrünün sonuna kimi sevərək sarıldığı məsləyinə sadiq qalıb, “Azərbaycanfilm” kinostudiyasını ikinci evi bilib.

Tələt Rəhmanovun adı çəkiləndə ilk növbədə baməzə, komik rollarını xatırlayır, bəzən heyrətdən, bəzən təəccübdən, bəzən də maraq və sevincdən böyümüş gözlərini, gurultulu səsini, özünəməxsus ifa tərzi ilə canlandırdığı xarakterik obrazları göz önünə gətiririk. Kiçikplanlı və epizod rolları çərçivəsində sənət bilgisini agah edən sənətkarın anadan olmasının 90-cı ildönümü (1931–1995) ərəfəsində həyat yoluna, sənət dünyasına qısa nəzər salırıq.

## Qısa arayış

Tələt Əliağa oğlu Rəhmanov 1931-ci il dekabrın 12-də Bakıda, İçərişəhərdə dünyaya gəlib. Ailələrində üç övlad (iki oğlan, bir qız) böyüyüb. Kiçik yaşlarından ataları repressiya qurbanı olub, uşaqlar analarının himayəsində qalıb. Orta məktəbi bitirən Tələt Rəhmanov indiki Neft və Sənaye Universitetinə qəbul olunub. Lakin atası “xalq düşməni” adlandırıldığından ali təhsil ocağını tezliklə tərk etməli olub, bir müddət sonra sənədlərini Teatr Texnikumuna verib. Daha sonra kinostudiyada çalışmağa başlayıb, 60-dan çox filmdə müxtəlif xarakterli irili-xırdalı rolda çəkilib. Ekran personajlarının çoxu epizod olsa da, özünəməxsus ifa manerasına, fərdi yaradıcılıq üslubuna görə rollarını xarakterik, dolğun yaratmağa müvəffəq olub. Filmlərdə çəkilməklə yanaşı tədricən film direktoru, rejissor assistenti kimi də çalışıb.

Onun müxtəlif janrlı ekran əsərlərində yaratdığı maraqlı kino obrazlarından Vəli (“Arşın mal alan”), milis işçisi (“Alma almaya bənzər”), kənd sakini (“Əhməd haradadır?”), furqon sahibi (“Yenilməz batalyon”), xidmətçi (“Uzaq sahillərdə”), milis işçisi (“Sehrli xalat”), Əli (“Qayınana”), inzibatçı (“Əmək və qızılgül”), Nazlının dayısı (“Şirbalanın məhəbbəti”), ferma müdiri Bayandur (“Kişi sözü”) və digər rolları kiçikplanlı olmasına baxmayaraq, filmin ideya məzmununu tamamlayan, hadisələrin axıcılığına rəvac verən personajlardır.

“Mozalan” satirik kinosüjetlərində də maraqlı obrazlar yaradan aktyor komik situasiyaları realist səpkidə çatdırıb, hadisələrin mahiyyətini özünəməxsus ştrixlərlə obrazların təfsirində dolğun və inandırıcı yaradıb. Bir neçə bədii filmdə kino obrazlarını (“Yol əhvalatı”nda elçi gələn, “Şeytan göz qabağında” filmində bazar müdiri və s.) ustalıqla səsləndirib. “Nizami”, “Babək”, “Qatır Məmməd”, “Təxribat”, “Xüsusi vəziyyət” və digər ekran əsərlərində film direktoru kimi çalışıb, filmlərin ərsəyə gəlməsində biliyini, bacarığını əsirgəməyib.

## Sənətkar haqqında düşüncələr





Tələt Rəhmanov istər “Mozalan” satirik kinojurnalına çəkildiyi süjetlərdə, istərsə də bədii filmlərdə oynadığı (əsasən komik) rollarına uyğun olaraq janrın tələbinə cavab verən bir sənətkar kimi səciyyəvi cəhətləri ilə müxtəlif dövrlərin ab-havasını yaradıb, nikbin əhval-ruhiyyəsini personajlara yansıdıb, baməzə rolların gülünc, gülüşdoğuran cəhətlərini incə, koloritli çalarlarla göstərib.

Əməkdar incəsənət xadimi, kinorejissor Cahangir Mehdiyevin söylədikləri aktyor haqqındakı təsəvvürümüzü daha da genişləndirir: “Tələt Rəhmanov quruluş verdiyim “Kişi sözü”, “Girişmə, öldürər!”, “Gənc qadının kişisi” filmlərində çalışıb. Ona rol həvalə edəndə obrazın xarakterini olduqca emosional çatdırırdı və çox vaxt da bunu həddən ziyadə büruzə verirdi. Hər çəkiliş zamanı rola bir az səthi yanaş deyirdim. Sakit şəkildə rolu oynayanda isə ondan istədiyim mizanı ala bilirdim, ifası da yaxşı alınırdı. Çox pozitiv insan idi. Adi əhvalatı o qədər şirin, həvəslə danışırdı ki, maraqla dinləməyə bilmirdin. Şəxsiyyəti ilə sənəti vəhdət təşkil edirdi.

“Gənc qadının kişisi” filminin müəyyən epizodlarının çəkilişi üçün İsveçrəyə iki dəfə (yay və qış fəslində) getməli olduq. Birinci dəfə bizimlə getdi, ikinci dəfə səfərə çıxanda getmədi. Həmişə deyib-gülən, gəzməyi sevən adamın səfərdən imtina etməsinə təəccübləndim. Səbəbini soruşanda dedi ki, özümü pis hiss edirəm. Əməliyyat olunmuşdu deyə artıq uzaq səfərə çıxmağa ehtiyat edirdi”.

Əməkdar mədəniyyət işçisi, bir çox filmdə ikinci rejissor, film direktoru kimi çalışmış Akif Rüstəmov həmkarını böyük hörmətlə yad etdi: “Mən kinostudiyaya gələndə Tələt artıq orda işləyirdi. Yaraşıqlı, mehriban insan idi. Sonradan onunla bir çox filmdə, əsasən də kinorejissor Eldar Quliyevin filmlərində bir yerdə işlədik. O, filmlərin direktoru, mən isə ikinci rejissoru idim. Tofiq Tağızadə, Eldar Quliyevlə qardaş kimi idi. Kinorejissorlar onun xətrini çox istəyirdilər.

Tələt Rəhmanov filmlərə çəkilməyi çox sevirdi. Yadımdadır, hər dəfə Eldar müəllimlə işləyəndə çəkilmək istədiyini bildirirdi. Eldar müəllim də “Tələt bilirəm ki, filmdə çəkilməyi sevirsən. Amma səni çəkməyəcəm. Çox yaxşı film direktorusan. Elə öz işinin öhdəsindən gəlməyin yetər” deyirdi.

Ümumiyyətlə, Tələt ürəyəyatımlı insan idi. “Babək” filminin rus dilində səs yazılışını reallaşdırmaq üçün iki ay müddətində Tələtlə birlikdə Moskva şəhərinə ezam olunduq (Babək obrazını Rusiyanın Xalq artisti Vladimir Vasilyeviç Drujnikov səsləndirirdi). Tələt o qədər ünsiyyətcil insan idi ki, artıq ikinci günü onu tanıyır, “Mosfilm”in dəhlizlərində onunla salamlaşırdılar. İclaslarda o iştirak edirdi. Onunla razılaşır, film üçün nə lazım olurdusa (studiya, rekvizit, əlbəsə və s.) rahatlıqla verirdilər.

“Nizami” filmi “Azərbaycanfilm” və “Mosfilm” kinostudiyalarının birgə istehsalıdır. Filmin çəkilişləri üçün iki ay, rus dilində səsləndirilməsi üçünsə bir ay müddətində Moskvada olduq. Nizami obrazını (rus dilində) Rusiyanın Xalq artisti Vyaçeslav Tixonov səsləndirdi. Bakıya qayıtdıqdan sonra məlum oldu ki, səsyazmanın müəyyən hissəsində qüsur var. Tixonovla danışdıq, həmin hissəni yenidən yazmaq üçün Moskvaya getdik. Tixonov böyük məmnuniyyətlə studiyaya gəldi, özünə aid olan hissəni səsləndirdi. Həmin vaxtlarda hər bir aktyorun tituluna uyğun qonorar verilirdi. Tixonov səsləndirməni təkrar etdiyi üçün əlavə olunan məbləği ona təqdim etdik. O isə üzünü Tələtə tutub “Bu pul mənə lazım deyil. Xahiş edirəm, bu pula filmin heyətini qonaq edərsiniz” dedi və pulu götürmədi.

Müslümün də Tələtə böyük hörməti vardı. Tələt həmişə “Məni ikinci dəfə həyata Müslüm qaytarıb” deyirdi. Tələtin mədə xəstəliyi vardı. Moskvada olanda onun sancıları çoxaldı. Onda Müslüm Tələti Moskvada ən yaxşı xəstəxanalardan birinə yerləşdirdi. Tələt həmin xəstəxanada əməliyyat olundu. O, həmişə Müslümdən minnətdarlıq hissi ilə danışırdı.

Müslüm Maqomayevlə Eldar Quliyev dost idilər. Müslüm Bakıya gələndə onu çox qonaq çağırırdılar. O isə hər çağırılan yerə getməzdi. Amma Eldar müəllimgilə mütləq gedərdi. Bir dəfə Tələt Müslümü evinə qonaq çağırdı. Həmin vaxtlarda beşmərtəbəli binalarda lift yox idi. Amma Müslüm Tələtin təklifini qəbul etdi. Eldar müəllim, Müslüm Maqomayev, Rusiyanın Xalq artisti İrina Alfyorova və mən Tələtgilə getdik. Çox gözəl süfrə açmışdılar. Həyat yoldaşı Mina xanım çox qabiliyyətli xanım idi. Dadlı xörəklər, mürəbbələr bişirmişdi. Arfyorovaya da həmin mürəbbələrdən hədiyyə etdi. Tələt ailəsini çox sevirdi. Mina xanımla çox mehriban münasibətləri vardı. Ümumiyyətlə, Tələt olan yerdə həmişə ruh yüksəkliyi, sevinc olurdu”.

“Azərbaycanfilm” Kinostudiyasında uzun illər icraçı prodüser kimi çalışan Arif Səfərovun xatirələrinə nəzər salaq: “Tələt müəllimlə yaxın dost idik. Çox zarafatcıl, mehriban insan idi. Ailəsini çox sevirdi, çox hörmət edirdi. Gülnarə adında bir qızı vardı. Kinostudiyada fotoqraf işləyən Natiq adlı bir oğlana ailə qurdu. Onların bu izdivacdan üç övladl (iki oğlan, bir qız) dünyaya gəldi.

“Qaynana” filminin çəkilişləri zamanı Nəsibə xanım Seyidzadədən xahiş etdi ki, Əli roluna oğlu Cahangir Novruzov çəkilsin. Seyidzadə razılaşmadı. Bu rol üçün hələ heç kimi nəzərdə tutmamışdı. Amma Tələt çox istəyirdi ki, bu rolu oynasın. O, doğurdan da qardaşoğlu roluna çox uyğun gəlirdi. Mən də Hüseyn müəllimə Tələtin bu rolu yaxşı oynaya biləcəyini söyləyirdim. Doğrudan da, o, Əli obrazını dolğun, inandırıcı oynadı. Ümumiyyətlə, Tələt olduğu hər yerdə xoş abu-hava yaradırdı”.

Əməkdar incəsənət xadimi, kinooperator Kənan Məmmədov yaxın dostunu kövrək hisslərlə xatırladı: “Azərbaycan kinosunu Tələt Rəhmanovsuz təsəvvür etmək mümkün deyil. Onunla dost, həm də həmkar idik. İstedadlı aktyor, bacarıqlı film təşkilatçısı idi. Aktyor kimi əksər hallarda epizodda çəkilirdi. Amma çəkildiyi epizod mütləq yığcam və anlaşıqlı olurdu. Film direktoru olanda da hər şey qaydasında olmalı idi.

Onunla bir sıra filmlərdə işləmişəm. Təşkilati məsələləri çətin olan filmlərdən biri də “Xüsusi vəziyyət” filmidir. Bu filmin operatoru idim, Tələt isə film direktoru idi. Filmlə bağlı Moskvada, Sankt-Peterburqda ezamiyyətdə olduq. Çox yaxşı yoldaşlığı da vardı. Həmişə də mənə “qədeş” deyirdi. Filmin natura çəkilişlərinin bir çoxu Daşkəsəndə aparılıb. İki aya yaxın Daşkəsəndə filiz kombinatında çəkilişlər etdik. Tələt bütün işləri anındaca həll edirdi, heç bir problem yaranmırdı.

Onunla bağlı xoş təəssüratlarım çoxdur. İkinci nəvəsi dünyaya gələndə adını Kənan qoydu. Doğum günündə məni də ailəvi qonaq çağırmışdı. Getdik. Çox gözəl süfrə açmışdılar. Həmin məclisdəki ünsiyyətini heç vaxt yadımdan çıxarmaram. Yoldaş kimi çox yaxşı yoldaş, məzəli, zarafatcıl insan idi. Heyf ki, ürəyi onu çox incidirdi. Elə ürəyindən də bu dünyadan köçdü. Allah ona rəhmət eləsin”.

**Şəhla ƏMİRLİ**
**kinoşünas**

## “Beşmanatlıq gəlin”, nəhayət, səhnəyə qayıdır

**Dekabrın 16-17-də Azərbaycan Dövlət Akademik Musiqili Teatrında “Beş manatlıq gəlin” (S.Rüstəmov, M.S.Ordubadi) retro komediyasının premyerası olacaq. 1940-cı ildən 1994-cü lədək müxtəlif rejissorların quruluşunda teatrın repertuarında olmuş səhnə əsərinə yeni quruluşu Əməkdar incəsənət xadimi Əsgər Əsgərov verib.**



Musiqili komediyada Xalq artistləri İlham Namiq Kamal, Fatma Mahmudova, Əməkdar artistlər Ələkbər Əliyev, Nadir Xasıyev, İqrar Salamov, aktyorlar Möylə Mirzəliyev, Elxan İsmayılov, Gülcahan Salamova, Ülviyyə Əliyeva, Mehriban Zaliyeva, Türkel Tariqpeyma, Səmədzadə Xasiyev, Gülnarə Əzizova, Elnarə Nağdəliyeva, İbrahim Əlizadə, Ruslan Mürsəlov, Nigar Qarayeva iştirak edəcəklər.

Orkestr, xor və balet artistlərinin də iştirak edəcəyi tamaşanın quruluşçu dirijoru Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, quruluşçu baletmeysterləri Əməkdar artistlər Zakir və Leyla Ağayevlər, xormeysteri Əməkdar artist Vaqif Məstanov, quruluşçu rəssamı Əməkdar rəssam Nabat Səmədova, dirijoru Səməd Süleymanlı, konsertmeysteri Fidan Babayeva, rejissor assistenti Tamilla Aslanovadır.

Qeyd edək ki, premyerası hələ ötən il Milli Teatr Gününə planlaşdırılan tamaşanın nümayişi pandemiya səbəbindən təxirə salınmışdı.

## Xatirə təqvimi — 10–13 dekabr

### Azərbaycan

**10 dekabr 1916** – Əməkdar artist Firuzə Xanlar qızı Bədirbəyli (1916–1992) Şəmkir rayonunun Morul kəndində doğulub. Gəncə Dövlət Dram Teatrının aktrisası olub.

**10 dekabr 1918** – Xalq artisti, tanınmış opera müğənnisi Gülxar İbrahim qızı Həsənova (1918 – 30.3.2005) Şəmkir rayonunda anadan olub. Gənc Tamaşaçılar Teatrında səhnə fəaliyyətinə başlayıb. Akademik Opera və Balet Teatrının solisti olub, filmlərdə, televiziya tamaşalarında çəkilib.

**10 dekabr 1924** – Xalq şairi, dramaturq, Dövlət mükafatları laureatı Nəbi Xəzri (Nəbi Ələkbər oğlu Babayev; 1924 – 15.1.2007) Bakının Xırdalan qəsəbəsində doğulub. Kitabları: “İllər və sahillər”, “Ulduz karvanı”, “Ağ şimşəklər” və s. “Mirzə Şəfi Vazeh”, “Torpağa sancılan qılınc” və s. pyeslərin müəllifidir. Respublika Televiziya və Radio Verilişləri Komitəsinin sədri olub.

**10 dekabr 1935** – Əməkdar rəssam, Dövlət mükafatı laureatı Fikrət Bağır oğlu Bağırov (1935–1996) anadan olub. “Azərbaycanfilm”də kino rəssamı işləyib. Bədii tərtibat verdiyi filmlər: “Şərikli çörək”, “Həyat bizi sınayır”, “İstintaq”, “Güllələnmə təxirə salınır!” və s.

**10 dekabr 1996** – Əməkdar incəsənət xadimi, şair-dramaturq İsgəndər Coşqun (İsgəndər Məhəmməd oğlu Hümmətov; 1927–1996) vəfat edib. “Gəmidə söhbət”, “Qığılcımlar”, “Nəğmə dolu ürək” və s. kitabların müəllifidir.

**11 dekabr 1918** – Xalq yazıçısı, Dövlət mükafatı laureatı Bayram Salman oğlu Bayramov (1918 – 9.11.1994) Ağdam rayonunun Şıxavənd kəndinə anadan olub. “Yarpaqlar”, “Arakəsmələr”, “Karvan yolu”, “Tək palıdın kölgəsi”, “Cıdır düzü” və s. romanların müəllifidir. “Mən ki gözəl deyildim”, “Firəngiz”, “Onun bəlalı sevgisi” filmlərinin ssenarisini yazıb.

**11 dekabr 1933** – Görkəmli yazıçı-dramaturq, publisist Əbdürrəhim bəy Əsəd bəy oğlu Haqverdiyev (17.5.1870 – 1933) vəfat edib. “Dağılan tifaq”, “Bəxtsiz cavan”, “Pəri cadu” və s. pyeslərin müəllifidir. Rus dilindən ədəbi tərcümələr edib. Teatr tamaşalarına quruluş verib.

**11 dekabr 1972** – Əməkdar artist Müxlis Sabir oğlu Cənizadə (26.11.1928 – 1972) vəfat edib. “Dəli Kür”, “Yenilməz batalyon” və s. filmlərdə çəkilib, filmlərin səsləndirilməsində iştirak edib.

**12 dekabr 1926** – Əməkdar mədəniyyət işçisi Aşıq Pənah (Əlipənah Ələsgər oğlu Pənahov; 1926 – 26.8.1978) Salyan rayonunda doğulub. Salyan Dram Teatrında çalışıb. “Kür” aşıqlar ansamblını yaradıb.

**12 dekabr 1927** – Əməkdar mədəniyyət işçisi Alp Məcid oğlu Ağamirov (1927-2000) anadan olub. Azərbaycan Televiziyasında baş redaktor işləyib.

**12 dekabr 1931** – Tanınmış aktyor Tələt Əliağa oğlu Rəhmanov (1931 – 13.11.1995) Bakıda anadan olub. “Arşın mal alan” (1965), “Qayınana”, “Kişi sözü” və s. filmlərdə çəkilib.

**12 dekabr 1936** – Əməkdar rəssam Qüdrət Hacıbəy oğlu Məmmədov (1936 – 20.2.2021) Şəki şəhərində anadan olub. Uzun illər Şəki Dövlət Dram Teatrının baş rəssamı işləyib.

**12 dekabr 1937** – Şair, tərcüməçi Əhəd Muxtar (Əhədulla Muxtar oğlu Qənbərov; 1937 – 23.5.1998) Astara rayonunun Kakalos kəndində anadan olub. Rus, özbək, qazax, türkmən şair və yazıçıların əsərlərini Azərbaycan dilinə çevirib.

**12 dekabr 1939** – Əməkdar incəsənət xadimi, kinorejissor Fikrət Balağa oğlu Əliyev (1939–2016) Bakıda anadan olub. “Baladadaşın ilk məhəbbəti”, “Qızıl uçurum”, “Yuxu”, “Axırıncı dayanacaq”, “Ölüm növbəsi” filmlərinə quruluş verib.

**12 dekabr 2002** – Xalq şairi Cabir Novruz (Cabir Mirzəbəy oğlu Novruzov; 12.3.1933 – 2002) vəfat edib. Şeirlərinə populyar mahnılar (“Cavanlığım”, “Ey həyat, sən nə qəribəsən”, “Tələbəlik illəri” və s.) bəstələnib.

**12 dekabr 2007** – Xalq yazıçısı Hüseyn Abbas oğlu Abbaszadə (22.11.1922 – 2007) vəfat edib. Əsərləri: “General”, “Burulğanlar”, “Ləpədöyəndə” və s.

**13 dekabr 1929** – Şərqşünas alim, professor Saleh Əliyev (1929 – 21.11.2006) Gəncədə anadan olub. Rusiya EA-nın Şərqşünaslıq İnstitutunda çalışıb. Cənubi Azərbaycan tarixi üzrə tədqiqatların müəllifidir. Moskvada “Ocaq” Mədəniyyət Cəmiyyətinin rəhbəri olub.

**13 dekabr 1937** – Əməkdar memar Abbas Abbas oğlu Ələsgərov (1937-2018) Bakıda doğulub. Azərbaycan Memarlar İttifaqının, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri olub.

### Dünya

**10 dekabr 1821** – Rus şairi, yazıçı və publisist Nikolay Alekseyeviç Nekrasov (1821 - 8.1.1878) anadan olub. “Rusiyada kim yaxşı yaşayır”, “Rus qadınları”, “Şaxta, Qırmızıburun”, “Kəndli uşaqları” və s. poemaların müəllifidir.

**10 dekabr 1890** – Başqırd şərqşünası və türkoloqu, filosof, ictimai-siyasi xadim Əhməd Zəki Validi Toğan; 1890 – 28.7.1970, Türkiyə) anadan olub.

**11 dekabr 1803** – Fransız bəstəkarı Hektor Berlioz (Louis-Hector Berlioz; 1803 – 8.3.1869) anadan olub. Əsərləri: “Fantastik simfoniya”, “Benvenuto”, “Çellini” operaları və s.

**11 dekabr 1890** – Argentina müğənnisi, aktyor, tanqo rəqqası Karlos Qardel (Carlos Gardel; 1890-1935) anadan olub. Onun şərəfinə 11 dekabr bir sıra ölkələrdə “Beynəlxalq tanqo günü” kimi qeyd olunur.

**11 dekabr 1913** – Fransız aktyoru, rəssam, heykəltəraş Jan Mare (Jan Alfred Villen-Mare; 1913 – 8.11.1998) anadan olub. “Bəyaz gecələr”, “Qraf Monte-Kristo”, “Parisin sirləri”, “Dəmir maska” və s. filmlərdə yaddaqalan rollar yaradıb.

**11 dekabr 1918** – Rus yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1970) laureatı Aleksandr İsayeviç Soljenitsın (1918 – 3.8.2008) anadan olub. 1945-1953-cü illərdə həbsdə, sonra Sibirdə sürgündə olub. 1973-cü ildə SSRİ-dən deportasiya olunub, ABŞ-da yaşayıb, 1994-də Rusiyaya qayıdıb. “Xərçəng korpusu”, “Birinci dairədə”, “Qırmızı təkər” və s. romanların müəllifidir.

**12 dekabr 1821** – Fransız yazıçısı Qustav Flober (Gustave Flaubert; 1821 – 8.5.1880) anadan olub. “Madam Bovari”, “Salambo”, “Hisslərin tərbiyəsi” və s. romanların müəllifidir.

**12 dekabr 1863** – Norveç rəssamı Edvard Munk (Edvard Munch; 1863-1944) anadan olub.

**12 dekabr 1915** – Dünya şöhrətli Amerika müğənnisi, aktyor Frenk Sinatra (Francis Albert Sinatra; 1915 – 14.5.1998) anadan olub.

**12 dekabr 1928** – Böyük qırğız yazıçısı Çingiz Aytmatov (1928 – 10.6.2008) anadan olub. “Cəmilə”, “Əlvida, Gülsarı!”, “Üz-üzə”, “Torpaq ana”, “Ağ gəmi”, “Əsrə bərabər gün”, “Edam kötüyü”, “Dağlar düşəndə” və s. əsərlərin müəllifidir.

**13 dekabr 1720** – İtalyan dramaturqu, nağıl-pyeslərin müəllifi Karlo Qotsi (Carlo Gozzi; 1720-1806) anadan olub.

**13 dekabr 1797** – Yəhudi əsilli məşhur alman şairi, yazıçı, ədəbiyyatşünas Henrix Heyne (Christian Johann Heinrich Heine; 1797 – 17.2.1856) anadan olub. Əsərləri: “Nəğmələr kitabı” (poeziya), ”Hars dağına səyahət” (nəsr) və s. Məşhur bəstəkarlar (F.Şubert, R.Şuman, P.Çaykovski) Heynenin şeirlərinə musiqi yazıb.

**13 dekabr 1949** – Məşhur türk kinoaktyoru, yazar Tarık Akan (Tarık Tahsin Üregül; 1949 – 16.9.2016) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

№91 (1868)
10 dekabr 2021
www.medeniyyet.az

# Tbilisidə ulu öndərin vəfatının ildönümünə həsr olunmuş sərgi

əvvəli səh. 1-də

Səfir Faiq Quliyev çıxış edərək Azərbaycan-Gürcüstan əlaqələrindən danışıb. Bildirib ki, ölkələrimiz və xalqlarımız arasında





dostluq münasibətlərinin inkişafında ümummilli lider Heydər Əliyevin və Gürcüstanın sabiq Prezidenti Eduard Şevardnadzenin müstəsna xidmətləri olub.

Bildirib ki, Heydər Əliyevin 1996-cı ildə Gürcüstana səfəri iki ölkə arasında strateji əlaqələrə zəmin olmaqla yanaşı, Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli formatının yaradılması istiqamətində imkanlar açıb. Növbəti illərdə Heydər Əliyev, Eduard Şevarnadze və Süleyman Dəmirəl tərəfindən əsası qoyulmuş üçtərəfli əməkdaşlıq bu gün fundamental ənənədir və uğurla inkişaf edir.

Gürcüstan xarici işlər nazirinin müavini Vladimir Konstantinidi çıxışında Heydər Əliyevi gürcü xalqının böyük dostu adlandırıb. Bildirilib ki, ölkələrimiz arasında əlaqələrin inkişafında bu böyük insanın xidmətləri olub. "Mənim üçün böyük bir fəxrdir ki, bu mühüm tədbirdə iştirak edirəm. Bu gün burada böyük şəxsiyyətin şəkillərinin sərgisi keçirilir. Bu sərgi mərhum Heydər Əliyevin dövründə ölkələrimiz arasında olan müsbət əlaqələri özündə çox yaxşı əks etdirir", – deyə o vurğulayıb.

Ulu öndərlə uzun illər çiyin-çiyinə müxtəlif yüksək dövlət vəzifələrində çalışmış Həsən Həsənov Azərbaycan-Gürcüstan münasibətlərinin inkişafında Heydər Əliyevin rolundan bəhs edib: "Azərbaycan və gürcü xalqları təkcə dost və qonşu deyil, qardaş xalqlardır. Sovetlər dönəmində ölkələr arasında əlaqələr Moskvanın icazəsi ilə qurulurdu. Amma Heydər Əliyev deyirdi ki, bunun Azərbaycan ilə Gürcüstan arasında əlaqələrə heç bir aidiyyəti yoxdur. Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Gürcüstan ilə əlaqələrə böyük önəm verib. Bunun nəticəsidir ki, bu gün ölkələrimiz arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib".

Daha sonra Milli Məclisin Azərbaycan-Gürcüstan parlamentlərarası işçi qrupunun rəhbəri Arzu Nağıyev, Gürcüstan parlamentinin keçmiş sədri Nino Burcanadze və başqaları çıxış ediblər.

Tədbirdə Azərbaycanın klassik musiqiləri və ulu öndər Heydər Əliyevin sevdiyi mahnılar səslənib.

# Moskvada azərbaycanlı rəssamın "İllüziya"sı

Dekabrın 7-də Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindəki "Azərbaycan" pavilyonunda azərbaycanlı rəssam Nigar Süleymanın "İllüziya" adlı fərdi sərgisi açılıb.



Nigar Süleyman əsərlərini yağlı boya ilə geometrik abstraksiya və simvolizm üslubunda yaradır. Onun əsərləri Moskvanın "Qostinıy Dvor" Sərgi Kompleksindəki "Art Russia – 2020" müasir incəsənət yarmarkasında və "Golden Talent" onlayn platformasında təqdim olunub, əl işlərinin bəziləri Rusiya və Azərbaycanda şəxsi kolleksiyalarda saxlanılır. Rəssam əsərlərini həndəsi abstraksiya və simvolizm üslubunda yerinə yetirir. Tablolar sənətkarın emosiyalarını və daxili duyğularını əks etdirir.

Sərginin açılışında çıxış edən "Azərbaycan" pavilyonunun direktoru Səadət Qədirova əsərlərdə rəssamın emosiya və düşüncələrinin əks olunduğunu vurğulayıb: "Nigar xanım Azərbaycanda doğulub boya-başa çatıb və onun əsərlərindəki Şərq motivləri ilə abstraksionizmin birləşməsi də elə buradan qaynaqlanır. Sərgidə rəssamın daxili aləmini, eləcə də Azərbaycanın ruhunu, Azərbaycan xalqının qəlbinin genişliyini və müasir rəngkarlıq məktəbinin istiqamətlərini əks etdirən rəsm əsərləri təqdim edilir".

Pavilyonda təşkil olunan tədbirlərdə Azərbaycan mədəniyyətinin, tarixinin təbliğinə daim önəm verildiyini bildirən Səadət Qədirova deyib: "Bu sərgi Vətənimizin zəngin mədəniyyətinin təbliğinə daha bir töhfədir".

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunun xanımı Gülnarə Şıxəliyeva rəssamı fərdi sərgisinin açılması münasibətilə təbrik edib, Nigar Süleymanın əsərlərində rəng çalarlarının uğurlu seçimini, Şərq və Qərb ənənələrinin birləşdiyini qeyd edərək deyib: "Azərbaycan mədəniyyətinin hərtərəfli inkişafının, zəngin tarixi ənənələrimizin təbliği olduqca vacib məsələdir. Nigar Süleymanın sərgisi bu istiqamətdə atılan daha bir uğurlu addımdır".

Rəssam yaradıcılığına göstərdikləri diqqətə görə sərgiyə gələnlərə təşəkkür edib: "Abstrakt rəsmləri yağlı boya ilə çəkmək çətindir. Ancaq bu, mənim üslubumdur və mən öz ideyalarımı, düşüncələrimi emosiyalarımı məhz bu üslubda ifadə edə bilirəm. Son 10 ildə xeyli rəsmlərim toplanıb və "Azərbaycan" pavilyonunun rəhbəri Səadət xanımın təklifi ilə bu sərgini təşkil etmək qərarına gəldim".

Sərgi dekabrın 19-dək davam edəcək.

# Bələdçiniz kimdir?

Azərbaycanda turizm bələdçilərinin sertifikasiyası prosesinə başlanılıb. Dekabrın 7-də Milli Akkreditasiya Mərkəzi tərəfindən Azərbaycan Turizm Bürosuna (ATB) bələdçilərin sertifikatlaşdırılması hüququnu verən akkreditasiya attestatının təqdimolunma mərasimi keçirilib.

Mərasimdə çıxış edən Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev deyib: "Bələdçilik vacib bir peşədir. Bələdçilik turizmin inkişaf zəncirində ən əsas amillərdən biridir. Ölkənin tarixi mədəniyyəti haqqında ilkin təəssüratı yaradan məhz bələdçilərdir. Bu vaxta qədər Dövlət Turizm Agentliyinin dəstəyi ilə beynəlxalq təşkilatlarla tərəfdaşlıq çərçivəsində turizm bələdçilərinin hazırlanması üçün təlimlər təşkil edilib. Turizm bələdçilərinin peşə statusunun təkmilləşdirilməsi işini aparmaq üçün Azərbaycan Turizm Bürosu tərəfindən turizm bələdçilərinin sertifikatlaşdırılmasına başlanılıb".

Qeyd edilib ki, Azərbaycan Milli Akkreditasiya Mərkəzi tərəfindən ilk dəfə olaraq turizm bələdçilərinin sertifikatlaşdırma orqanına bu sahədə fəaliyyət göstərməsi üçün akkreditasiya sənədi verilir. Sertifikasiya prosesi zamanı keçirilən təlimlər bu peşənin nəzəri və praktik tərəfini əhatə edəcək.

Turizm haqqında yeni qanun layihəsinin hazırlanaraq Milli Məclisə təqdim olunduğunu söyləyən Fuad Nağıyev layihədə turizm bələdçilərinin sertifikatlaşmasının da əks olunduğunu bildirib. Eyni zamanda yeni qanuna əsasən yaradılacaq turizm reyestrində bələdçilərin də reyestri aparılacaq.

Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru, Turizm Bələdçilərinin Sertifikatlaşdırılması Orqanının (TBSO) sədri Florian Zenqstşmid bildirib ki, respublika üzrə təlim və sertifikasiya prosesi beynəlxalq standartlar əsasında, milli akkreditasiya sisteminə uyğun formada təşkil olunacaq.



Azərbaycan Akkreditasiya Mərkəzi Baş direktorunun müavini Emin Zeynalov Azərbaycanda bələdçilik sahəsi üzrə belə bir təşəbbüsü turizm sahəsinin inkişafı istiqamətində atılmış mühüm addımlardan biri kimi qiymətləndirib.

Emin Zeynalov Milli Akkreditasiya Mərkəzi tərəfindən hazırlanan sənədi TBSO sədri Florian Zenqstşmidə təqdim edib.

# Keçmiş həbsxana binasını sənət mərkəzinə çevirmək istəyir



Britaniyalı qraffiti-rəssam Benksi məşhur Riding həbsxanasını satın almaq istəyir. Rəssam vaxtilə məşhur yazıçı Oskar Uayldın da "sakin"i olduğu Riding həbsxanasını almaq üçün 10 milyon funt təklif edib.

Benksi yazıçının saxlanıldığı həbsxananı sənət mərkəzinə çevirmək istədiyini bildirib. Sənət ulduzları da Benksinin bu qərarını dəstəkləyib.

Rəssam bu ilin mart ayında Riding həbsxanasının divarında qaçmağa çalışan məhbusun qraffiti təsvirini çəkmişdi. Rəsmdə təsvir olunan yazı makinasından çıxan kağızlarla həbsxanadan qaçmağa çalışan adamın Oskar Uayld olunduğu düşünülür. Uayld 1895-1897-ci illərdə bu həbsxanada məhbus olub.

Qeyd edək ki, həbsxana XI əsrdə İngiltərə kralı I Henrix (Henry I Beauclerc) tərəfindən əsası qoyulmuş Riding monastırının yerində tikilib. I Henrinin də burada basdırıldığı və cəsədinin həbsxana divarları altında olduğu güman edilir. Həbsxana 2013-cü ildən bağlanıb.

**CAVİD**

# Maqomayev müsabiqəsinin qalibi "Karnegi-Holl"da çıxış edəcək



Xəbər verdiyimiz kimi, Ukraynanın Truskavets şəhərində əfsanəvi müğənni və bəstəkar, Azərbaycanın və SSRİ-nin Xalq artisti Müslüm Maqomayevin xatirəsinə həsr olunmuş IV Beynəlxalq vokalçılar müsabiqəsində azərbaycanlı gənc ifaçı Urfan Cəfərov və ukraynalı vokalçı Darya Nazimçuk 1-ci yerə layiq görülüblər.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsindən bildiriblər ki, ölkəmizin bu müsabiqədə təmsilçiliyi idarə rəhbərliyinin 15-21 iyun tarixində Ukraynaya səfəri zamanı razılaşdırılıb. Razılaşmaya əsasən, ölkəmiz bu il həm iştirakçılar sırasında, həm də ilk dəfə münsiflər heyətində (Xalq artisti, professor Gülnaz İsmayılova) təmsil olunub.

Məlumatda qeyd olunur ki, müxtəlif ölkələrdən 18 ifaçının qatıldığı müsabiqənin finalında qalib olan Urfan Cəfərov laureat diplomu ilə yanaşı, Nyu-Yorkun (ABŞ) nüfuzlu "Karnegi-Holl"da solo konsert keçirmək hüququ verən sertifikatla da mükafatlandırılıb.

Urfan Cəfərov müsabiqədə konsertmeyster, pianoçu, Əməkdar artist Nigar Məlikovanın müşayiəti ilə çıxış edib. Nigar Məlikova da diplomla təltif olunub. Qeyd edək ki, Urfan Cəfərov Xalq artisti, professor Xuraman Qasımovanın yetirməsi və Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının məzunudur.

Baş idarənin təşkil etdiyi tədbirlərdə dəfələrlə çıxış edən vokalçı səsi və səhnə mədəniyyəti ilə tamaşaçıların rəğbətini qazanıb.

# Braziliyalı rəssamın "küçə sənəti" Bakıda

Təsviri incəsənətin "street art" ("küçə sənəti") üslubunda işləyən braziliyalı rəssam Nina Pandolfonun əsərlər dekabrın 22-də Heydər Əliyev Mərkəzində açılacaq sərgidə təqdim olunacaq.




"Minnətdarlıq" ("Gratitude") adlı sərgidə müəllifin multikultural dünyanı təqdim edən, etnik baxımdan müxtəlifliyi ilə seçilən qadınlara həsr olunan əsərləri nümayiş etdiriləcək. Ziyarətçilər həm də Nina Pandolfonun qraffiti instalyasiyaları ilə də tanış ola biləcəklər.

Müəllif hesab edir ki, minnətdarlıq hissi daim ətrafa aşılanmalı və təşviq edilməlidir. Vəziyyətdən asılı olmayaraq, hər zaman minnətdar olmaq üçün səbəb tapmaq mümkündür. Nina Pandolfo onda ən güclü minnətdarlıq hissinin məhz yaradıcılıq zamanı yarandığını söyləyir.

Sərgiyə çıxarılacaq əsərlərdəki qadın obrazları geniş açılmış gözlərlə təsvir ediliblər. Bununla da müəllif bizi əhatə edən multikultural dünyanın seyr edilməsinin və buna minnətdarlıqla yanaşılmasının vacibliyini vurğulayır.

Nina Pandolfo 1977-ci ildə Braziliyada anadan olub. Karlos de Kampos adına Dövlət Texniki Məktəbində vizual kommunikasiya üzrə təhsil alıb. 90-cı illərdə əl işləri ilə San-Paulu küçələrini bəzəməyə başlayan rəssam Braziliya qraffiti sənətinin tanınmış nümayəndəsinə çevrilir. O, həmçinin Avropanın bir sıra ölkələrinin və Amerika Birləşmiş Ştatlarının sənət qalereyalarında keçirilən sərgilərdə iştirak edib.

2007-ci ildə Pandolfo Şotlandiyanın 8 əsr yaşı olan Kelburn qəsrinin fasad və qülləsini boyamaq üçün Braziliyanın tanınmış küçə rəssamları ilə əməkdaşlıq edir. Bu uğurlu layihə 2011-ci ilin "Top-10 küçə sənəti nümunələri" siyahısına daxil edilir.

Heydər Əliyev Mərkəzində təşkil ediləcək "Minnətdarlıq" sərgisi 2022-ci il iyunun 19-dək davam edəcək.

# "Leyli və Məcnun" dastan-tamaşası nümayiş olunacaq

Azərbaycan Aşıqlar Birliyinin layihəsi üzrə Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasının motivləri əsasında ilk dəfə eyniadlı dastan-tamaşa hazırlanıb. Layihə "Nizami Gəncəvi İli" çərçivəsində Mədəniyyət Nazirliyi və Heydər Əliyev Sarayının dəstəyi ilə ərsəyə gəlib.




"Leyli və Məcnun" dastan-tamaşası dekabr 17-də Heydər Əliyev Sarayında nümayiş olunacaq.

Tamaşanın ssenari müəllifləri Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi Məhərrəm Qasımlı və filologiya üzrə fəlsəfə doktoru Altay Məmmədli, quruluşçu rejissoru Əməkdar artist İnarə Babayevadır.

Dastan-tamaşada iştirak edirlər: Qələndər Zeynalov (Ustad aşıq), Əməkdar mədəniyyət işçisi Samirə Əliyeva (Leyli), Əli Zeynalabdinov (Qeys – Məcnun), Kəmalə Qubadlı (Leylinin anası), Elməddin Məmmədli (Qeysin dostu Zeyd), Əməkdar mədəniyyət işçisi Solmaz Kosayeva (Qeysin anası), Şahniyar Əliyev (Qeysin atası), Nəbi Nağıyev (Leylinin atası), Eldar Bağırov (Səyyad), Elman Talıstanlı (Salam şahzadə), Əli Tapdıqoğlu (Nofəl pəhlivan) və saz ifaçıları Afil Bəxtiyarov, Ayxan Məlikov, Coşqun Əsgərov.

# "Gecə gözətçisi"nin qırışları

Alman rəssamı Rembrandt van Reinin (1606-1669) "Gecə gözətçisi" tablosu kətanın yuxarı sol küncündəki qırışı aradan qaldırmaq məqsədilə qismən bərpa olunacaq.



"Biz inanırıq ki, bu, kətanın uzunmüddətli qalması üçün çox vacibdir. Qırışın aradan qaldırılması rəsmin səthini daha düz edəcək", - deyə Niderland Dövlət Muzeyi Rəsmlərin konservasiyası şöbəsinin müdiri Petria Noble bildirib.

Agentliyin məlumatına görə, kətan yanvar ayında çərçivədən çıxarılaraq yenisinə salınacaq. Qüsur Niderland Dövlət Muzeyində aparılan təmir işləri səbəbindən yaranıb. Bu zaman rəsm Rembrandtın evindəki müvəqqəti qalereyaya aparılıb. Mütəxəssislər bildiriblər ki, kətanda qırışlar qalereyada hərarət həddindən artıq dəyişdiyinə görə yaranıb.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5146
**Sifariş:** 2616
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.